

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 06 (646) ■ 14 fevral 2013 www.vergiler.az Qiyməti: 40 qəp.

# Regionların inkişafı sahəsində mühüm uğurlar əldə olunmuşdur

*Fevralın 12-də Bakı Biznes Mərkəzində Prezident İlham Əliyevin sədrliyi ilə «Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfrans keçirilmişdir. Dövlət başçısı Mərkəzdə 2003-2012-ci illərdə respublikamızın sosial-iqtisadi inkişafı istiqamətində görülmüş işləri əks etdirən sərgi ilə tanış olmuşdur.*






Konfransda geniş nitq söyləyən Prezident İlham Əliyev regionların sosial-iqtisadi inkişafına xidmət edən dövlət proqramlarının 9 ildir ki, uğurla icra edildiyini, nəticədə iqtisadiyyatın bütün sahələrində dinamik inkişafın əldə olunduğunu bildirmişdir. Dövlətimizin başçısı həmin proqramların uğurlu icrası nəticəsində ötən illərdə iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı sahəsində bir sıra mühüm nəticələrin qazanıldığını diqqətə çatdırmışdır: «Sahibkarlığın inkişafı, dövlət dəstəyinin gücləndirilməsi və bütün bu məsələlərin bir-biri ilə əlaqəli şəkildə həll edilməsi Proqramın əsas mahiyyətini təşkil edirdi. Yerli istehsalın artırılması, idxaldan asılılığın azaldılması, iş yerlərinin yaradılması və beləliklə, yoxsulluğun, işsizliyin aradan qaldırılması məsələləri də böyük əhəmiyyət kəsb edirdi. Yəni regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı, əslində, ölkəmizin uğurlu, dayanıqlı inkişafı, iqtisadiyyatımızın şaxələndirilməsi üçün ən vacib və ən əsas iqtisadi alətə çevrilmişdir».

Proqramın icrası nəticəsində ötən illərdə işsizliyin aradan qaldırılması sahəsində mühüm nəticələrin qazanıldığını deyən Prezident İlham Əliyev qarşıda duran vəzifələrdən də söz açmışdır. Ölkə iqtisadiyyatının son illərdə kifayət qədər gücləndiyini diqqətə çatdıran dövlətimizin başçısı Azərbaycanın böyük layihələri daxili imkanları hesabına reallaşdırmaq imkanında olduğunu qeyd etmişdir: «Əgər biz əvvəlki dövrdə layihələrin icrası üçün daha çox xarici maliyyə mənbələrindən asılı idiksə, bu gün artıq belə deyildir, Azərbaycan özü kredit verən ölkəyə çevrilibdir. Hətta Azərbaycan dövləti Beynəlxalq Maliyyə Korporasiyasına da - bu qurum Dünya Bankının tərkib hissəsidir, - kredit ayırmışdır. Yəni, şübhəsiz, bu illər ərzində ölkəmiz hər cəhətdən uğurla irəliyə getmişdir. Beləliklə, bu il Proqramı uğurla başa çatdırmaq üçün mən heç bir əngəl, heç bir problem görmürəm. Sadəcə olaraq, yerli icra orqanları, yerli sahibkarlar və mərkəzi icra orqanları həmişə olduğu kimi, əlaqəli şəkildə işləməli və verilən bütün tapşırıqları vicdanla, şərəflə yerinə yetirməlidirlər».

Ölkə iqtisadiyyatının neft amilindən asılılığının azaldılması baxımından mühüm nəticələrin əldə olunduğunu deyən Prezident İlham Əliyev 2012-ci ildə qeyri-neft sektorunun 10%-lik artımını da mühüm göstərici kimi dəyərləndirmişdir. Dövlətimizin başçısı ötən 9 ildə ölkə iqtisadiyyatının və sənaye istehsalının üç dəfədən çox artmasını mühüm göstərici kimi dəyərləndirmişdir: «Hesab edirəm ki, bu, dünya miqyasında analoqu olmayan göstəricidir. Sənaye istehsalı təxminən üç dəfə artmışdır, ölkə iqtisadiyyatına təxminən 130 milyard dollar sərmayə qoyulmuşdur və keçən il sərmayə qoyuluşu rekord həddə çatmışdır - 22 milyard dollardan çox. Onlardan 13 milyardı yerli investisiyalar olmuşdur».

Beynəlxalq maliyyə qurumlarının Azərbaycandakı inkişafı yüksək qiymətləndirdiyini deyən Prezident İlham Əliyev respublikada sosial məsələlərin həlli istiqamətində mühüm göstəricilərin əldə olunduğunu bildirmişdir: «Bizim iqtisadi sahədəki islahatlar, eyni zamanda, güclü sosial siyasətlə də tamamlanır. Əgər yenə də son doqquz ilin statistikasına nəzər salsaq, görərik ki, 2004-cü ildə Azərbaycanda orta əməkhaqqı təxminən 100 dollar səviyyəsində idi, bu gün 500 dollar səviyyəsindədir. Orta pensiya 20 dollar səviyyəsində idi, bu gün 200 dollar səviyyəsindədir. Əlbəttə, bu rəqəmlər də bizi qane etmir və mən hesab edirəm ki, orta pensiyanın, orta əməkhaqqının səviyyəsi artmalıdır və artacaqdır. Dövlət müəssisələrində çalışanların əməkhaqları, pensiyaları artırılacaq, eyni zamanda sahibkarlığın inkişafı üçün yaradılan şərait nəticəsində özəl sektorda çalışanlar da öz maliyyə vəziyyətini yaxşılaşdıracaqlar. Ancaq yenə də deyirəm, bu böyük fərq onu göstərir ki, biz sosial məsələlərin həllində də böyük nailiyyətlərə çata bilmişik».

Konfransda iqtisadi inkişaf naziri Şahin Mustafayev, bir sıra rayon icra hakimiyyətlərinin başçıları, sahibkarlar regionda dövlət proqramları çərçivəsində əldə olunan nəticələrdən söz açmışlar.

Konfransda yekun nitqi söyləyən Prezident İlham Əliyev demişdir ki, bu ilin sonunadək ikinci Dövlət Proqramının icrası təmin ediləcəkdir: «Beləliklə, 10 ili əhatə edən bir dövr arxada qalacaqdır. Ancaq artıq bu gün də demək olar ki, həm 2004-cü ildə, həm 2009-cu ildə qəbul edilmiş iki Dövlət Proqramının icrası ölkəmizin inkişafı üçün çox böyük rol oynamışdır. Əgər bu proqramlar qəbul edilməsəydi, indi bölgələrdə gedən inkişafdan söhbət aparmaq belə yersiz olardı. Məhz 2004-cü ildə qəbul edilmiş bu qərar ölkəmizin hərtərəfli, dayanıqlı və şaxələndirilmiş şəkildə inkişafını təmin etmişdir».

Ölkə Prezidenti konfransda Dövlət Proqramı çərçivəsində qazanılmış uğurları geniş təhlil etməklə yanaşı, qarşıda duran vəzifələrə də toxunmuş, aidiyyəti dövlət qurumlarına göstərişlərini vermişdir.

# II Vergi Forumu: *«Azərbaycanın vergi sistemi: reallıqlar və perspektivlər»*

*Fevral ayının 8-də Bakıda «Azərbaycanda vergi sistemi: reallıqlar və perspektivlər» mövzusunda II Vergi Forumu keçirildi. Forumda dövlət orqanlarının, Milli Məclisin, Avropa İttifaqının, Dünya Bankının, İqtisadi Əməkdaşlıq və İnkiaf Təşkilatının (OECD), Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA), Bakıda akkreditə olunmuş bir sıra səfirliklərin, ABŞ, Belçika və Türkiyədən gəlmiş tanınmış iqtisadçıların, bankların, qeyri-hökumət təşkilatlarının, sahibkarların ictimai birliklərinin və kütləvi informasiya vasitələrinin nümayəndələri və iş adamları iştirak edirdilər.*




## «Vergi Forumu bir daha göstərir ki, Azərbaycanda iqtisadi islahatlar uğurla aparılır»

Forumu giriş sözü ilə açan Milli Məclisin İqtisadi siyasət komitəsinin sədri, akademik Ziyad Səmədzadə II Vergi Forumunun ölkəmizdə vergi sisteminin müasir vəziyyəti, qarşıda duran vəzifələr və inkişaf perspektivləri ilə bağlı vətəndaş cəmiyyəti və işgüzar dairələrlə açıq dialoqun qurulması istiqamətində mühüm addım olduğunu bildirdi. Qeyd olundu ki, II Vergi Forumunun keçirilməsi müstəqil Azərbaycanın iqtisadi siyasətinin ayrılmaz tərkib hissəsinə çevrilən vergi sisteminin mühüm rolunun göstəricisidir. Z.Səmədzadə bildirdi ki, respublikamızın vergi sistemi beynəlxalq təşkilatlar, iqtisadi qurumların nümayəndələri, dünyanın ən nüfuzlu ekspertləri tərəfindən yüksək qiymətləndirilir: «Azərbaycanın iqtisadi təhlükəsizliyinin təmin olunmasında, iqtisadi qüdrətinin yüksəlməsində, maliyyə ehtiyatlarının artmasında, iqtisadi inkişafın sürətlənməsində ən mühüm dövlət strukturlarından olan Vergilər Nazirliyinin rolu çox böyükdür. Vergilər Nazirliyinin həyata keçirdiyi siyasət maliyyə sabitliyinin qorunmasına, ölkəmizin iqtisadi inkişafı ilə bağlı müəyyən olunmuş hədəflərin reallaşmasına bilavasitə təsir göstərir. Son illərdə vergi sahəsində davamlı islahatlar həyata keçirilib, dayanıqlı, çevik vergi sistemi yaradılıb, vergi inzibatçılığı təkmilləşdirilib, ən son texnologiyalar tətbiq olunub, vergi ödəyicilərinin intizamı güclənib, ödənişlərin həcmi artıb, dövlət büdcəsinə vergi daxilolmalarının xüsusi çəkisi hər il yüksəlməyə başlayıb». Akademik ölkəmizdə innovativ iqtisadiyyata keçidlə bağlı Vergilər Nazirliyinin üzərinə mühüm vəzifələr düşdüyünü, ən yeni texnologiyaların tətbiq olunmasında və vergi daxilolmalarının həcminin artmasında nazirliyin daha böyük uğurlara imza atacağına inandığını diqqətə çatdırdı.

Z.Səmədzadə Vergi Məcəlləsinə edilən son dəyişikliklər sayəsində biznes mühitinin daha da yaxşılaşması, investisiya qoyuluşlarının yüksəlməsi, maliyyə resurslarının həcminin çoxalması, ölkəmizin iqtisadi qüdrətinin artması, şəffaflığın güclənməsi baxımından məcəlləyə edilən dəyişikliklərin mühüm rol oynayacağını bildirdi.

**Davamı 2-ci səhifədə**

2 «Vergi Məcəlləsinə dəyişikliklər iqtisadi inkişafın stimullaşdırılmasına xidmət edir»

3 «Dünya Bankı vergi sistemini Azərbaycandakı uğur adalarından biri hesab edir»

4 «Cəmiyyətin bütün maraqlı tərəflərinin forumda iştirakı çox mühüm amildir»

5 «Vergilər Nazirliyini fərqləndirən cəhətlərdən biri də başladığı hər bir işi axıra çatdırmaq bacarığıdır»

# II Vergi Forumu: «Azərbaycanın vergi sistemi: reallıqlar və perspektivlər»

Əvvəli 1-ci səhifədə

**Forumda çıxış edən vergilər naziri, 2-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov** qeyd etdi ki, Azərbaycan Respublikası vergi xidməti işçilərinin peşə bayramı günü ərəfəsində vergi orqanı rəhbərlərinin və aidiyyəti dövlət qurumlarının rəhbər vəzifəli şəxslərinin iş adamları, vergi ödəyiciləri, iqtisadçı alimlər, ekspertlər, qeyri-hökumət təşkilatlarının və kütləvi informasiya vasitələrinin nümayəndələri ilə bir araya toplaşaraq ölkəmizin vergi sistemindəki real vəziyyəti və onun perspektiv inkişaf istiqamətlərini müzakirə etməsi artıq bir ənənəyə çevrilib.

O, Vergi Forumunun iştirakçılarını ürəkdən salamladı, vergi xidməti əməkdaşlarını isə peşə bayramı münasibətilə təbrik edərək, onlara məsul və şərəfli işlərində uğurlar arzuladı.

Vergilər naziri qeyd etdi ki, II Vergi Forumunda Vergilər Nazirliyi ilə sıx əməkdaşlıq edən Avropa İttifaqının Azərbaycan nümayəndəliyinin rəhbəri cənab Roland Kobia, Beynəlxalq Vergi və İnvestisiya Mərkəzinin Prezidenti cənab Daniel Vitt, Dünya Bankının Azərbaycan üzrə meneceri xanım Larisa Leşşenko, OECD-nin Vergi Siyasəti və İdarəetmə Mərkəzinin direktor müavini xanım Grace Perez-Navarro, Avropadaxili Vergi Administrasiyaları Təşkilatının eksperti xanım Anne Paavonaho, bir sıra xarici ölkələrin Azərbaycandakı səfirləri, ABŞ, Belçika və qardaş Türkiyədən gəlmiş tanınmış iqtisadçı alimlər, ekspertlər, Azərbaycanda fəaliyyət göstərən xarici şirkətlərin nümayəndələri iştirak edir. Nazir onları salamlamaqdan böyük məmnunluq duyduğunu və dəvəti qəbul edib Forumda iştirak etdikləri üçün təşəkkürünü bildirdi.

O, qeyd etdi ki, ötənilki Forumda milli vergi sisteminin müasir dünya standartlarına uyğunlaşdırılması və ən müasir texnoloji əsaslarda inkişaf etdirilməsi ilə bağlı biznes və vergi orqanlarının nümayəndələri ilə açıq dialoq aparılıb: «Hesab edirik ki, müzakirələrin məhz belə formatı vergi qanunvericiliyi, eləcə də vergi inzibatçılığı sahəsində həyata keçirilən bütün islahatları daha geniş təhlil etməyə, biznes mühitinin daha da yaxşılaşdırılması üçün optimal və bütün tərəflər üçün faydalı həllər tapmağa imkan verir».

Vergilər nazirinin fikrincə, Forum aparılan islahatların, vergi inzibatçılığının daha səmərəli olması üçün atılan addımların əsas istiqamətlərinin müəyyənləşdirilməsində də mühüm rol oynayır.

Builki Vergi Forumunun çox əlamətdar bir dövrdə - Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi ərəfəsində keçirildiyini bildirən nazir, ölkəmizin vergi sisteminin formalaşmasında Heydər Əliyevin misilsiz xidmətlərini bir daha xatırlatdı: «Azərbaycanda quruculuq işlərinin başlandığı 90-cı illərin ortalarında məhz ulu öndərin təşəbbüsü və dəstəyi ilə vergi sistemində də köklü dəyişikliklərin aparılmasına, vergi sisteminin müasir standartlar əsasında formalaşdırılmasına start verildi. Əvvəllər dövlət xəzinəsinə gəlirlərin yığılması ilə məşğul olan fiskal orqan kimi fəaliyyət göstərən vergi xidmətinin funksiyaları genişləndirildi, vergi siyasəti isə biznes mühitini iqtisadi tənzimləmə və stimullaşdırma vasitəsi kimi tətbiq olunmağa başladı. Heydər Əliyevin rəhbərliyi altında vergi siyasətinin konseptual əsasları hazırlandı, vergi sistemində aparılacaq islahatların fəlsəfəsi, strategiyası və əsas istiqamətləri formalaşdırıldı.

Azərbaycanda vergi sahəsində təkmil qanunvericilik bazasının yaradılması, ölkənin ilk Vergi Məcəlləsinin qəbulu da bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Onun rəhbərliyi altında 1999-2000-ci illərdə Vergi Məcəlləsinin ilk layihəsi hazırlanaraq geniş ictimai müzakirələrə çıxarıldı və 2000-ci ilin iyul ayında qəbul edildi. Sonrakı illərdə də Məcəllənin təkmilləşdirilməsi istiqamətində işlər davam etdirildi. Forum iştirakçılarının çoxuna məlum olduğu kimi, ötən ilin dekabr ayında Milli Məclis Vergi Məcəlləsinə dəyişikliklər paketini qəbul etmiş və bu dəyişikliklər cari ilin yanvar ayının 1-dən qüvvəyə minmişdir».

Natiq sonra ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu milli vergi sisteminin son 10 il ərzində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında əsaslı modernizasiya prosesindən keçdiyini, onun maddi-texniki bazasının genişləndirildiyini, vergi inzibatçılığının texnoloji cəhətdən əsaslı surətdə yenidən qurulduğunu qeyd etdi:



«Vergilər Nazirliyi vergi ödəyicilərinə göstərilən xidmətlərin elektronlaşdırılması prosesinə hələ 2005-ci ildən başlamışdır. Vergi inzibatçılığının təkmilləşdirilməsi üzrə Dövlət Proqramı həyata keçirilmiş, vergi sisteminin geniş diapazonlu texniki imkanlara malik texnoloji bazası yaradılmışdır.

Ötən illər ərzində vergi ödəyicilərinə elektron bəyannamələr göndərmək, elektron vergi hesab-fakturalarından istifadə etmək, elektron vergi ödənişlərini həyata keçirmək, vətəndaşlarla dövlət qurumu arasında elektron formada məktublaşma imkanı verən «Onlayn kargüzarlıq» sistemindən faydalanmaq imkanı yaradılmışdır. Azərbaycanda ilk dəfə ƏDV inzibatçılığı prosesində vergi nəzarətinin tam elektronlaşdırılmasına imkan verən ƏDV depozit hesabı tətbiq edilmişdir. Sahibkarlıq subyektlərinin qeydiyyatının daha da sadələşdirilməsi məqsədilə 2011-ci ildən fiziki şəxslərin, 2012-ci ildən isə yerli investisiyalı kommersiya hüquqi şəxslərin real vaxt rejimində elektron qeydiyyatına başlanılmışdır».

O, bildirdi ki, bu gün sahibkarlıq fəaliyyətində vergi orqanları ilə vergi ödəyiciləri arasında bütün proseslər əsasən elektronlaşdırılıb, sahibkarlar vergi əməkdaşları ilə ünsiyyətə girmədən vergi öhdəliklərinin yerinə yetirilməsi ilə bağlı bütün prosesləri həyata keçirə bilirlər: «Bütövlükdə tətbiq edilmiş informasiya texnologiyaları istər vergi ödəyiciləri tərəfindən, istərsə də vergi xidməti tərəfindən vergi inzibatçılığına çəkilən xərclərin əhəmiyyətli şəkildə azalmasına imkan vermişdir. Bu gün vergi inzibatçılığı xərclərinin vergi daxilolmalarına nisbəti göstəricisinə əsasən (0,35%), Azərbaycan vergi xidməti Avropa məkanında ən səmərəli vergi inzibatçılığına malik ölkələrdən biridir».

Natiq Dünya Bankının hazırladığı «Doing Business» hesabatında «Vergi ödənişi asanlığı» göstəricisi üzrə 2013-cü il üçün bəyannamələrin doldurulması və vergilərin ödənilməsinə sərf olunan illik vaxt indikatorunun 2007-ci ilə nisbətən 4,7 dəfə azalaraq 214 saata, ödəmələr indikatorunun, yəni ödəmələrin illik sayının 2 dəfə azalaraq 18-ə düşdüyünü əlavə etdi. Bütün bunlar sahibkarlar və iş adamları üçün əlverişli investisiya şəraitinin yaradılması və azad rəqabət mühitinin bərqərar olmasının əyani göstəricisidir.

Nazir bildirdi ki, elektron hökumət çərçivəsində təqdim olunan xidmətlərin sayına görə Vergilər Nazirliyi daha çox elektron xidmət göstərən dövlət orqanıdır. Hazırda vergi sistemi üzrə bu xidmətlərin sayı 57-yə çatdırılıb ki, onların 46-sı artıq faktiki tətbiq olunur. Qalan 11 xidmətin tətbiqi ilə bağlı işlər isə başa çatmaq üzrədir.

Vergilər naziri Fazil Məmmədovun fikrincə, ölkə iqtisadiyyatının sürətli inkişafı ilə yanaşı, vergi sisteminin texnoloji cəhətdən modernləşdirilməsi, inzibati idarəetmənin keyfiyyətcə yaxşılaşdırılması və avtomatlaşdırılması qısa müddətdə vergi daxilolmalarına da öz müsbət təsirini göstərib: «2000-ci illə müqayisədə vergi daxilolmalarının həcmi 2012-ci ildə 12 dəfəyə yaxın artmışdır ki, bu da Azərbaycan iqtisadiyyatında baş vermiş iqtisadi sıçrayışın bariz nümunəsi olmaqla bərabər, həm də mövcud iqtisadi sistemə adekvat vergi inzibatçılığının mövcudluğunun göstəricisidir».

Qeyd olundu ki, əlverişli investisiya mühitinin yaradılması və ölkədə iqtisadi fəallığın artması nəticəsində həmin dövrdə vergi ödəyicilərinin sayı da 3 dəfədən artıq çoxalıb. Təkcə ötən il vergi ödəyicilərinin sayı əvvəlki ilə nisbətən 72 min artıb.

Vergilər naziri bu gün digər sahələrdə olduğu kimi, vergi xidmətinin də qarşısında yeni, qlobal çağırışlar durduğunu əlavə etdi: «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası milli vergi sistemi üçün də yeni hədəflər müəyyən etmişdir. Dünyada baş verən qlobal tendensiyalar və beynəlxalq inteqrasiyanın dərinləşməsi bilik menecmentinə əsaslanan, texnoloji baxımdan daim təkmilləşən bir vergi sisteminin yaradılmasını zəruri edir.

Biz yaxın gələcəkdə vergi sistemində müasir informasiya texnologiyalarının, elektron auditin tətbiqi, elektron xidmətlərin genişləndirilməsi, vergi ödəyiciləri ilə vergi orqanları arasında partnyorluq münasibətlərinin qurulması istiqamətində aparılan islahatları davam etdirmək niyyətindəyik».

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü ili «İnformasiya-kommunikasiya texnologiyaları ili» elan etdiyini bildirən natiq, Vergilər Nazirliyinin bu sahədə beynəlxalq təcrübəyə əsaslanan yeni uzunmüddətli strategiyanın həyata keçirilməsinə başladığını qeyd etdi: «Bu strategiya geniş çeşidli elektron xidmətlərin təqdim olunması, İT-təməlli və bilik menecmentinə əsaslanan vergi inzibatçılığının inkişaf etdirilməsi, onun şəffaflığının və səmərəliliyinin təmin olunması, informasiya menecmenti sisteminin müasir strateji prinsiplər əsasında inkişafını əhatə edəcəkdir».

Vergilər nazirinin fikrincə, müasir inkişaf tendensiyası və qlobal çağırışlar vergi orqanları tərəfindən daha fəal vergi siyasətinin həyata keçirilməsini və vergi daxilolmalarının artırılmasını tələb edir: «Vergi islahatları ilə yanaşı, biz nağdsız ödənişlərin stimullaşdırılması, nağd ödəmələrin həcminin məhdudlaşdırılması, əmək münasibətlərinin leqallaşdırılması və əmək müqavilələrinin bağlanılmasının təmin edilməsi hesabına vergitutma bazasının daha da genişləndirilməsinə nail olmalıyıq».

O, qarşıya qoyulan məqsədlərin vergi sisteminin sabit və proqnozlaşdırıla bilən, vergi inzibatçılığının isə biznesin iştirakçıları üçün maksimum rahat və əlverişli olmasını, vergi sisteminin stimullaşdırıcı rolunun artırılmasını tələb etdiyini vurğuladı: «Biz vergi ödəyiciləri ilə konstruktiv dialoq qurmaq, milli vergi sisteminin qarşısında duran vəzifələri sizinlə birlikdə qarşılıqlı fayda prinsipi əsasında həll etmək, dövlət-biznes münasibətlərini tərəfdaşlıq, partnyorluq səviyyəsinə qaldırmaq istəyirik».

...Çıxışını yekunlaşdıran nazir Forumda iştirak edənlərin hamısına bir daha təşəkkür edərək aparılacaq müzakirələrin vergi orqanları və işgüzar dairələr arasında əlaqələrin inkişafına, qarşılıqlı etimadın daha da dərinləşdirilməsinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.

Fasilə zamanı brifinq keçirən Fazil Məmmədov müzakirə olunan mövzu ilə bağlı jurnalistlərin çoxsaylı suallarını cavablandırdı. Vergilər naziri ölkədə nağdsız ödənişlərin stimullaşdırılması və əmək haqlarının leqallaşdırılması, transfert qiymətlərinin vergiyə cəlb olunması və s. məsələlərə toxundu, mətbuat konfransında jurnalistlərin səsləndirdiyi suallara ətraflı aydınlıq gətirdi.

## «Vergi Məcəlləsinə dəyişikliklər iqtisadi inkişafın stimullaşdırılmasına xidmət edir»



***Vergilər Nazirliyinin vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Akif Musayev*** «Azərbaycanın vergi qanunvericiliyi və onun təkmilləşdirilməsi istiqamətləri» mövzusunda təqdimatında Vergi Məcəlləsinin 2001-ci il yanvar ayının 1-dən tətbiq olunduğunu xatırladaraq bildirdi ki, sənədin qəbulunda başlıca məqsəd yalnız vahid vergi qanunvericiliyinin formalaşdırılması deyil, həm də vergi yükünün aşağı salınması olub. Məcəllənin 100-dən artıq maddəsi vergi ödəyicilərinin hüquqlarının qorunması və onların qanuni maraqlarının təmin olunmasına xidmət edir. Sənədin tətbiqi ilə bağlı sonrakı mərhələdə 100-dək əlavə normativ-hüquqi sənəd hazırlanaraq vergi orqanı əməkdaşları və vergi ödəyicilərinin istifadəsinə verilib, əvvəllər tətbiq olunan 13 vergi növündən 9-u Məcəllədə təsbit olunub. Ötən illərdə 31 qanunun qəbulu ilə Vergi Məcəlləsinə 813 bənd üzrə əlavə və dəyişikliklər edilib. Bu zaman vergi yükünün artırılmasına yol verilməyib, vergitutma bazası genişləndirilib. Qeyd olundu ki, Məcəlləyə dəyişikliklərin başlıca məqsədi səmərəli dövlət tənzimlənməsinə və bazar münasibətlərinə əsaslanan iqtisadi modelin formalaşmasıdır: «İqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, yerli istehsalın inkişafının və yeni texnologiyaların tətbiqinin stimullaşdırılması; qanunvericiliyin təkmilləşdirilməsi və institusional potensialın gücləndirilməsi; qeyri-neft sektorunun inkişafı üçün daha əlverişli şəraitin yaradılması; ixrac potensialının artırılması; elmi potensialın və innovasiya fəaliyyətinin dəstəklənməsi; elmtutumlu texnologiyaların inkişaf etdirilməsi; aktiv vergi siyasətinin həyata keçirilməsi nəticəsində əqli mülkiyyətə əsaslanan kreativ iqtisadiyyata keçidə dəstək məsələləri də həmin dəyişikliklərin əsas məqsədini təşkil etmişdir».

Natiq bildirdi ki, «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» 2012-ci il 21 dekabr tarixli Qanuna əsasən, Vergi Məcəlləsinə son əlavə və dəyişikliklər həm mahiyyəti, həm tətbiq dairəsi, həm də təqdim olunmuş güzəştlərin həcmi və kateqoriyaları baxımından son illərin ən geniş dəyişikliklər paketidir. Məcəllənin 63 maddəsinə 131 bənd üzrə 176 əlavə və dəyişiklik edilmişdir və bu, ümumilikdə, Məcəllənin müddəalarının 30%-də dəyişiklik olunması deməkdir. Son dəyişikliklərin tətbiqi ilə əlaqədar 35-dən yuxarı müxtəlif normativ-hüquqi sənəd hazırlanması nəzərdə tutulur ki, bu da həmin dəyişikliklərin miqyasının əyani göstəricisidir: «Dəyişikliklər nəticəsində Vergi Məcəlləsinə sənaye və texnologiyalar parkları, partnyorluq sazişi, vergi riskləri, onların minimumlaşdırılması, elekron audit, iri vergi ödəyiciləri və xüsusi vergi rejimli müəssisələr, onların müəyyən edilməsi meyarları kimi yeni anlayışlar daxil edilmişdir».

Bildirildi ki, Vergi Məcəlləsində edilmiş dəyişikliklərdən biri də Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları ilə yaradılmış sənaye və texnologiyalar parklarında fəaliyyət göstərən rezident hüquqi şəxslər və fərdi sahibkarlar texnika, texnoloji avadanlıq və qurğuların idxalında ƏDV-dən, onların parkdakı əmlaklarına görə əmlak vergisindən, parkda istifadə etdikləri torpaqlara görə torpaq vergisindən, parkda fəaliyyətdən əldə etdikləri gəlirə görə (əməkhaqqından tutulan gəlir vergisi istisna olmaqla) gəlir və ya mənfəət vergisindən 7 il müddətinə azad edilmələri. Bununla yanaşı, həmin parkların idarəedici təşkilatı və ya operatoru texnika, texnoloji avadanlıq və qurğuların idxalında ƏDV-dən, park infrastrukturunun tikintisi və saxlanılmasına yönəldilmiş mənfəət məbləğinə görə mənfəət vergisindən, parkın ərazisində yerləşən əmlaklarına görə əmlak vergisindən, parkda istifadə etdikləri torpaqlara görə torpaq vergisindən müddətsiz olaraq azad edilmişlər.

Qeyd olundu ki, Məcəllədə əksini tapmış çox mühüm dəyişikliklərdən biri də vergi orqanları ilə vergi ödəyiciləri arasında partnyorluq sazişinin bağlanmasını nəzərdə tutur. Bu sazişin könüllülük əsasında bağlanılacağını diqqətə çatdıran A.Musayevin sözlərinə görə, məqsəd vergilərin düzgün və tam ödənilməsində dövlət orqanlarının yükünün vergi ödəyiciləri ilə bölüşdürülməsi, vergi ödəyiciləri ilə qarşılıqlı əməkdaşlıq və məsuliyyət platformasında münasibətlərin qurulması, vergi risklərinə nəzarət və onların minimallaşdırılmasıdır: «Vergi tərəfdaşlığı sazişi - vergi orqanı ilə ödəyici arasında risklərin minimallaşdırılması məqsədi ilə könüllü şəkildə bağlanmış niyyət razılaşmasıdır. Bu, vergi inzibatçılığı prosesində vergi orqanları ilə ödəyici arasında münasibətlərin tamamilə yeni əsaslarda qurulması deməkdir. Bir çox qabaqcıl ölkələrdə, o cümlədən ABŞ-da, Niderlandda, İrlandiyada və s. vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlər tərəfdaşlıq əlaqələrinin qurulması ilə tənzimlənir. Bu təcrübənin səmərəliliyi artıq beynəlxalq təcrübə ilə sübuta yetirilmişdir. Tərəfdaşlıq sazişləri könüllülük əsasında bağlanılır. Belə münasibətlərin qurulması, ilk növbədə, qarşılıqlı etimada və məsuliyyətə əsaslanır. Bu da gələcəkdə vergi ödəyicisinin vergidən yayınma risklərini minimallaşdırmaqla, onların əlavə maliyyə itkilərinin qarşısını alacaqdır. Eyni zamanda, vergi orqanları ilə vergi ödəyiciləri arasında yaranan mübahisələrin minimuma endirilməsi və onların həllinə çəkilən inzibatçılıq xərclərinin aşağı salınması təmin ediləcəkdir».

Vergi Məcəlləsinə elektron auditə mərhələli keçidlə bağlı normaların daxil edildiyini deyən A.Musayev əlavə etdi ki, mühasibat uçotunun tədricən elektron formada aparılmasına keçid məqsədilə vergi ödəyicilərinin vəzifələri müəyyən edilib: «Bu vəzifələrə mühasibat uçotunun elektron formatda aparıldığı halda, elektron daşıyıcılarındakı məlumatlara birbaşa və ya məsafədən çıxış imkanının yaradılması, mühasibat uçotu sənədlərinin elektron və kağız formada tam oxunaqlı vəziyyətdə 5 ildən az olmayan müddətdə saxlanılması, tələb edilən müddət ərzində sənədlərin və elektron faylların vergi orqanına təqdim olunması məsələlərini daxil etmək olar. Beynəlxalq təcrübədə elektron audit vergi nəzarətinin ən mükəmməl forması kimi müəyyən edilmişdir və belə bir yeniliyin Azərbaycanda da tətbiqi vergi ödəyiciləri ilə vergi orqanları arasında əməkdaşlığın daha müasir formada qurulmasına imkan verəcəkdir».

Təqdimatda Vergi Məcəlləsində əksini tapmış digər dəyişikliklər də ətraflı şərh edildi. Bildirildi ki, Məcəlləyə edilmiş dəyişikliklərin bir qismi sosial məqsəd daşıyaraq vergi ödəyicilərinin maddi vəziyyətinin yaxşılaşdırılmasına, ikinci qrupa daxil olan vergi güzəştləri isə stimullaşdırıcı xarakter daşıyaraq müəyyən sahələrin inkişafının təmin edilməsinə yönəldilib.

**Davamı 3-cü səhifədə**

# Vergilər Nazirliyinin yaradılmasının 13-cü ildönümü qeyd olunmuşdur

## Nazirliyin rəhbərliyi və şəxsi heyəti Fəxri xiyabanda xalqımızın ümummilli lideri Heydər Əliyevin və Şəhidlər xiyabanında şəhidlərimizin xatirəsini ehtiramla yad etmişlər



Fevralın 11-i Vergilər Nazirliyinin yaradılmasının 13-cü ildönümü və vergi xidməti əməkdaşlarının peşə bayramı münasibətilə nazirliyin rəhbərliyi və şəxsi heyəti Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad etmiş, abidəsi önünə əklil qoymuşlar. Mərasim iştirakçıları görkəmli oftalmoloq alim Zərifə xanım Əliyevanın məzarına da gül dəstələri düzmüşlər. Sonra Şəhidlər xiyabanına gələn vergi əməkdaşları Vətənimizin azadlığı və müstəqilliyi uğrunda canlarından keçən şəhidlərimizin məzarlarına gül-çiçək dəstələri düzmüş, Xatirə Kompleksi önünə əklil qoymuşlar.



# II Vergi Forumu: «Azərbaycanın vergi sistemi: reallıqlar və perspektivlər»

Əvvəli 2-ci səhifədə

## «Yaxın gələcəkdə vergi daxilolmalarının artımı, əsasən, qeyri-neft sektorunun hesabına təmin edilməlidir»



***İqtisadi inkişaf nazirinin müavini Sevinc Həsənova*** «Qeyri-neft sektorunun inkişafı və vergi siyasəti» mövzusunda məruzə edərək ölkədə həyata keçirilən iqtisadi siyasət nəticəsində iqtisadi artımın davamlılığının təmin edildiyini diqqətə çatdırdı. Qeyri-neft sektorunun inkişafına müsbət təsir edən əsas amil kimi səmərəli vergi siyasətinin həyata keçirildiyini qeyd edən S.Həsənova bildirdi ki, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, investisiyaların təşviqi baxımından vacib sahələrin inkişafına əlverişli şərait yaradılması üçün vergi güzəştlərinin tətbiqi və vergi yükünün azaldılması mühüm əhəmiyyət daşıyır.

Sevinc Həsənovanın sözlərinə görə, vergi güzəştlərinin tətbiqi iqtisadi siyasətin səmərəli vasitələrindən biri hesab olunur. Hər hansı sahənin inkişafını stimullaşdırmaq üçün vergi güzəştlərinin verilməsi nəticə etibarilə istehsalın artırılmasına, yeni iş yerlərinin yaradılmasına və regionların inkişafına şərait yaradır. Bu yanaşmaya uyğun olaraq, kənd təsərrüfatı məhsulları istehsalçıları 2014-cü ilədək, torpaq vergisi istisna olmaqla, digər vergilərdən azad edilib. Bu kimi tədbirlərin nəticəsidir ki, məşğul əhalinin təqribən 40%-nin çalışdığı kənd təsərrüfatında məhsul istehsalı 2012-ci ildə 2000-ci illə müqayisədə 1,8 dəfə artıb. Bu faktor, eyni zamanda, əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəlməsinə səbəb olub: özünütəminetmə səviyyəsi 2007-ci illə müqayisədə 2011-ci ildə buğda üzrə 48%-dən 57,7%-ə, kartof üzrə 98%-dən 101,6%-ə, ət və ət məhsulları üzrə 85,2%-dən 87,6%-ə çatıb.

Çıxışda əhalinin sərəncamında qalan vəsaitin artırılmasında, əmanət bazasının genişləndirilməsində, kredit təşkilatlarının resurslarının çoxalmasında, habelə kreditə olan tələbin ödənilməsində və real sektorun davamlı inkişafının təmin olunmasında da vergi siyasətinin əhəmiyyətinin böyük olduğu, bu siyasi addım sayəsində banklar və digər kredit təşkilatları tərəfindən fiziki şəxslərin əmanətləri üzrə ödənilən faizlərin 2014-cü ilədək gəlir vergisindən azad olunduğu qeyd edildi. Sahibkarlığın inkişafının sürətləndirilməsi, ölkə iqtisadiyyatına investisiyaların cəlb edilməsi və iqtisadiyyatın davamlı inkişafının təmin olunmasında vergi siyasətinin müstəsna rolundan danışan natiq vergilərin dərəcələrinin aşağı salınmasının qeyri-neft sektorunun inkişafına müsbət təsir göstərdiyini vurğuladı: «Vergi dərəcələrinin azaldılması sayəsində büdcə gəlirlərinin müəyyən hissəsinin real sektorda saxlanılmasına, başqa sözlə, real sektorun stimullaşdırılmasına yönəldilmişdir. Bunun sayəsində sahibkarlıq subyektlərinin mənfəəti çoxalmış və investisiya qoymaq imkanları genişlənmişdir. 2011-ci ildə müəssisələrin və təsərrüfat təşkilatlarının mənfəəti 2003-cü illə müqayisədə 23 dəfə artmış, eləcə də 2012-ci ildə müəssisə və təşkilatların öz vəsaitləri hesabına əsas kapitala yönəldilmiş investisiyaların həcmi 2004-cü illə müqayisədə 1,6 dəfə çoxalmışdır».

Sənayeləşmə siyasətinin uğurla həyata keçirilməsində vergi siyasətinin böyük əhəmiyyətinin olduğunu deyən S.Həsənova Vergi Məcəlləsində edilmiş son dəyişikliklərin bu sahəyə güclü təkan verəcəyinə əmin olduğunu bildirdi: «Sənaye və texnologiyalar parkında çalışacaq subyektlərin mənfəət, ƏDV, əmlak və torpaq vergilərindən 7 il ərzində azad olunması sənaye bölməsinə və qeyri-neft sektoruna investisiyaların stimullaşdırılmasına, müasir texnologiyaların tətbiqinə və qeyri-neft məhsullarının ixracının artırılmasına zəmin yaradacaqdır».

S.Həsənova Azərbaycanın dövlət büdcəsi gəlirlərinin formalaşmasının yaxın illərdə, əsasən, qeyri-neft sektorunun hesabına təmin edilməsi və büdcənin neft gəlirlərindən asılılığının minimuma endirilməsinin başlıca hədəflərdən olduğunu, qeyri-neft sektorundan daxil olan gəlirlərin büdcədə xüsusi çəkisinin artmasında vergilərin rolunun əhəmiyyətini qeyd edərək, bu məqsədlə iqtisadi inkişaf istiqamətləri nəzərə alınmaqla vergitutma bazasının genişləndirilməsinin əsas meyarlardan biri olacağını vurğuladı: «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında adambaşına düşən ÜDM həcminin iki dəfə artırılaraq 13000 ABŞ dollarına çatması, qeyri-neft sektoru üzrə adambaşına düşən ixrac həcminin 1000 dollara çatdırılması və qeyri-neft sektoru üzrə ÜDM-in orta illik real artım tempinin 7%-dən yüksək olması hədəfləri müəyyənləşdirilib. Hədəflərə çatmaq üçün iqtisadi sistemin rəqabət qabiliyyətinin daha da artırılması məqsədi ilə tədricən passiv vergi siyasətindən aktiv vergi siyasətinə keçidin təmin edilməsi, sahibkarlıq fəaliyyətində əlverişli mühitin yaradılmasına kömək üçün vergi dərəcələrinin optimallaşdırılması istiqamətində tədbirlərin görülməsi nəzərdə tutulub. Hesablamalarımıza əsasən, 2020-ci ildə qeyri-neft sektorundan vergi orqanlarının xətti ilə 2012-ci illə müqayisədə üç dəfədən çox vəsait toplanacağını gözləmək olar. Bu baxımdan, növbəti illərdə də həyata keçiriləcək vergi siyasəti qeyri-neft sektorunun inkişafını stimullaşdırmaqla İnkişaf Konsepsiyasında müəyyən edilmiş hədəflərə nail olunmasına köməklik göstərəcəkdir».

## «Vergilər Nazirliyi islahatlara açıq qurumdur»



***Avropa İttifaqının (Aİ) Azərbaycan Respublikasındakı nümayəndəliyinin rəhbəri Roland Kobia*** «Vergi islahatları sahəsində Avropa İttifaqı ilə Azərbaycanın əməkdaşlığı» mövzusuna həsr etdiyi çıxışında respublikamızın vergi sistemində həyata keçirilən islahatların təsirli nəticələr verdiyini qeyd etdi. Aİ ilə Azərbaycanın vergi sahəsində sıx əməkdaşlığına toxunan R.Kobia vergi nəzarətinin daha da müasirləşdirilməsi, elektron audit sisteminin tətbiq edilməsi, idarəetmə sisteminin təkmilləşdirilməsi ilə bağlı birgə layihələrin əhəmiyyətindən danışdı: «Vergilər Nazirliyi Avropa İttifaqı ilə müasir islahatlara açıq qurum kimi qiymətləndirilə bilər. Səmərəli əməkdaşlıq və dialoq çərçivəsində Azərbaycanın vergi sisteminin müasirləşdirilməsi istiqamətində çox mühüm addımlar atılıb».

Aİ-nin maliyyə dəstəyi ilə Vergilər Nazirliyində həyata keçirilən «Tvinninq» layihəsinin əhəmiyyətindən bəhs edən R.Kobia böyük perspektivlərə malik olan bu layihənin ölkəmizdə vergi auditi sahəsində inzibatçılığın ən yüksək beynəlxalq standartlara uyğunlaşdırılmasına səbəb olacağına inandığını diqqətə çatdırdı: «Tvininq» layihəsi Azərbaycanın vergi sisteminin təkmilləşdirilməsində mühüm layihələrdən biridir. Layihə e-auditin tətbiqi sahəsində Avropada ən qabaqcıl təcrübəyə malik ölkələrdən biri olan Niderland Krallığının Vergi və Gömrük Administrasiyası ilə birlikdə reallaşdırılır. Elektron audit sistemi Azərbaycanın vergi sistemini yeni, daha müasir texnologiyalara əsaslanan bir inkişaf mərhələsinə çıxaracaq, idarəetmənin daha da yaxşılaşmasına, risklərin idarə olunmasına öz müsbət təsirini göstərəcək. Layihənin reallaşdırılması Azərbaycanda ən müasir e-audit sisteminin tətbiqinə imkan verəcək.



## «Transfert qiymətlərinə tələblər müxtəlifdir»



***ABŞ-ın Georgiya Universitetinin professoru Tad D.Ransover*** «Transfert qiymətlərinə tələblər» mövzusuna həsr olunmuş təqdimatında bildirdi ki, IOTA üzvlərinin əksəriyyətində vergi ödəyicilərinin öhdəliklərinin məcburi yerinə yetirilməsinə yönəldilmiş qaydalar mövcuddur. Bildirildi ki, həmin qaydalar yerli qanunvericiliklə tənzimlənir və buna görə də bir-birindən fərqlənir: «Artıq bir sıra ölkələr transfert qiymətlərinin vergi administrasiyası tərəfindən tənzimləndiyi halda, vergi ödəyicilərinin transfert qiymətlərinin uzadılmış əl prinsipinə uyğunlaşdırılmasını daha çox tətbiq etməyə başlayırlar. Aydındır ki, bütün vergi administrasiyaları hər hansı əməliyyatın OECD qaydaları ilə uyğun olmasını, bütün aidiyyəti xərclərin daxil edilməsini, aidiyyəti olmayan xərcləri daxil edilməməsini və uzadılmış əl prinsipinin tətbiqini arzulayırlar».

Qeyd olundu ki, transfert qiymətlərinin təyini bir təşkilat daxilində təmin edilən vəsaitlərin qiymətləndirilməsi ilə əlaqədardır: «Məsələn, mallar istehsalat bölməsindən marketinq bölməsinə və ya ana şirkətdən xarici filial şirkətinə satıla bilər. Qiymətlər təşkilat daxilində təyin edildiyindən (yəni tənzimlənə bildiyindən), üçüncü tərəflər arasında belə sövdələşmələr üçün qiymətləri müəyyən edən tipik bazar mexanizmləri tətbiq oluna bilməz».

Təqdimat zamanı transfert qiymətləri ilə bağlı digər məsələlərə də aydınlıq gətirildi.

## «Dünya Bankı vergi sistemini Azərbaycandakı uğur adalarından biri hesab edir»



***Dünya Bankının Azərbaycan üzrə ölkə meneceri Larisa Leşşenko*** iqtisadi inkişafın təmin edilməsində vergi sisteminin rolunun böyük olduğunu, Azərbaycanda həyata keçirilən uğurlu vergi siyasətinin biznes mühitinin yaxşılaşmasına, qeyri-neft sektorunun inkişafının təmin edilməsinə, büdcə gəlirlərinin həcminin artırılmasına töhfə verdiyini diqqətə çatdırdı. Qeyd olundu ki, Dünya Bankının Azərbaycandakı strategiyasının əsas hədəfi ölkəyə iqtisadi diversifikasiya və özəl sektorun inkişafı sahələrində dəstək verməkdən ibarətdir. Bura biznes mühitinin yaxşılaşdırılması sahəsində ən qabaqcıl beynəlxalq təcrübənin təşviq olunması, sahibkarların öz hüquq və vəzifələri barədə biliklərinin artırılması, onlara ən qabaqcıl praktikanın tətbiq edilməsində yardım göstərilməsi, institusional inkişaf və investisiya fəaliyyəti daxildir. Birgə əməkdaşlıq çərçivəsində inzibati maneələrin aradan qaldırılması, şəffaflığın artırılması, biznesin başlanması, lisenziyalaşdırma və icazələr kimi proseslərin səmərəliliyinin artırılması və müəssisələrdə yoxlamalar prosedurları kimi proseslərin təkmilləşdirilməsinə nail olunub.

L.Leşşenko bildirdi ki, Dünya Bankının Azərbaycanda biznes mühiti ilə bağlı hesabatında bir çox sahələrdə müsbət dəyişikliklər öz əksini tapıb, o cümlədən vergi sistemində aparılan islahatlar vergi bazasının genişləndirilməsinə töhfə verib, orta və yüksək gəlirli qruplara aid olan dövlətlərin vergi və qeyri-neft sektoruna aid göstəricilərində Azərbaycanın mövqeyi əhəmiyyətli dərəcədə yaxşılaşıb.

L.Leşşenko vergi güzəştləri və azadolmaları barədə də fikirlərini bölüşərək onların daimi deyil, yalnız müəyyən bir müddət üçün verildiyini, bir çox hallarda bu addımın ödəyicilərdə heç də yaxşı vərdiş yaratmadığını bildirdi. Natiq, həmçinin, ödəyicilərin vergi orqanı əməkdaşlarına yanaşmasının dəyişməsi üçün təşviqedici addımların atılmasının da vacibliyini vurğulayaraq qeyd etdi ki, vergi orqanı cəzalandırıcı deyil, dəstəkverici qurum kimi fəaliyyət göstərməlidir.

L.Leşşenko Dünya Bankının vergi sistemini ölkəmizdəki uğur adalarından biri hesab etdiyini əlavə etdi.

Davamı 4-cü səhifədə

# II Vergi Forumu: «Azərbaycanın vergi sistemi: reallıqlar və perspektivlər»

Əvvəli 3-cü səhifədə

## «Cəmiyyətin bütün maraqlı tərəflərinin forumda iştirakı çox mühüm amildir»



***«Beynəlxalq vergi və rəqabətlilik» mövzusunda təqdimatla çıxış edən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (IOTA) Vergi siyasəti və İnzibatçılığı Mərkəzinin direktor müavini xanım Grace Perez-Navaro*** dedi ki, Azərbaycanın vergi sistemindəki ardıcıl və sistemli islahatlar beynəlxalq səviyyədə mütərəqqi model kimi qəbul olunur. Bildirdi ki, vergi sisteminin müasirləşdirilməsi ümumilikdə Azərbaycanda rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşmasına və vergi mühitinin liberallaşmasına imkan yaratmışdır.

Vergi şəffaflığı məsələsi ilə bağlı İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının siyasətindən söz açan Grace Perez-Navaro Azərbaycanın son illərdə bu sahədə mühüm irəliləyişlərə nail olduğunu vurğuladı. Bildirildi ki, təşkilat ölkələr arasında ticarət maneələrinin həlli üçün ikiqat vergitutmanın aradan qaldırılmasını, əlavə dəyər vergisinin azaldılmasını, vergi şəffaflığının gücləndirilməsini, ikiqat vergidən azadolmanı təşviq edir. Eyni zamanda, ayrı-ayrı ölkələrin vergi administrasiyaları ilə əməkdaşlığın genişləndirilməsi, islahatlarla bağlı təklif və tövsiyələrin verilməsi qurumun diqqət mərkəzində saxlanılır. Qeyd olundu ki, təşkilatın korporativ vergi planlaşdırılması strategiyaları müxtəlif vergi normalarının hərtərəfli planlaşdırılmış qarşılıqlı əlaqələndirilməsinə əsaslanır: «Rəqabətədavamlılığın mühüm şərtlərindən biri də vergi idarələri ilə özəl müəssisələr arasında münasibətlərin xarakterinin dəyişdirilməsidir. Yəni qarşıdurmadan, gizli araşdırma mövqeyindən daha səmərəli, müştərək əməkdaşlığa şəffaf yanaşmaya doğru istiqamət götürmək lazımdır».

Təqdimat zamanı təşkilatın bir sıra ölkələrlə birgə həyata keçirdiyi layihələr barədə də ətraflı məlumat verildi. Qeyd olundu ki, rəqabədavamlılığın mühüm şərtlərindən biri də vergitutma bazasının genişləndirilməsi və vergi dərəcələrinin optimallaşdırılmasıdır: «Eyni zamanda, vergi administrasiyaları ilə vergi ödəyiciləri arasında etimadın yaradılması vacib məsələlərdən biridir. Bu istiqamətdə Azərbaycanın həyata keçirdiyi islahatları dəstəkləyirik».

Cəmiyyətin bütün maraqlı tərəflərinin forumda iştirakının çox mühüm amil olduğunu xüsusi olaraq vurğulayan IOTA nümayəndəsi bu təcrübəni digər ölkələrə də tövsiyə edəcəklərini bildirdi.

## «Ödəyicinin mədəni səviyyəsi vergi ödənişinə ciddi təsir göstərir»



***Türkiyənin Hacettepe Universitetinin professoru Əhməd Burçin Yereli*** «Vergi əməletmə xərcləri» mövzusunda məruzəsində vergitutmanın istiqamətlərinə toxunaraq qeyd etdi ki, dünyada vergilərin ictimai-sosial sektorda əhəmiyyəti artır, vergitutma mənbələri genişlənir. Eyni zamanda, vergi ödəyicilərinin mükəlləfiyyətləri artır. Bu isə vergi yükünün aşağı və yuxarı hədlərinin müəyyən olunmasına gətirib çıxarır. Vergidən yayınma hallarına toxunan natiq buna qarşı dünyada müxtəlif inzibati üsulların tətbiq olunduğunu, qaçaqçılığa qarşı ümumi rasional yanaşmanın mövcud olduğunu bildirdi: «Vergi qaçaqçılığı vergi sistemində səmərəliliyə təsir edən amillərdəndir. Bu halların qarşısının alınması inzibati qurumlar üçün asan və rahat işdir. Amma belə halların olmaması üçün ödəyicilərin yekdilliklə qəbul etməsi vacib olan qaydaların işlənməsi lazımdır. Yəni vergidən yayınan şəxslər əməletmənin nə qədər vacib və həyati olmasını anlamalıdırlar. Bunun üçün rasional, əxlaqi-psixoloji yanaşma və digər formullar mövcuddur».

Əhməd Burçin vergilərdən yayınmaya bir sıra obyektiv faktorların təsir göstərdiyinin istisna olmadığını bildirərək, burada ödəyicinin gəlirlərinin strukturu, vergi dərəcələri, sanksiyaların yüksək olması kimi amillərin rol oynadığını qeyd etdi. Vergi sistemində bu problemə demoqrafik faktorların da səbəb olduğunu söyləyən professor burada ödəyicinin yaşı, mədəni səviyyəsi, cinsi mənsubiyyəti, ailə vəziyyəti, təhsil səviyyəsi kimi amillərin də təsirindən söz açdı. Onun sözlərinə görə, ödəyicinin mədəni səviyyəsi vergi ödənişinə ciddi təsir göstərir. Eyni zamanda, təhsili olan insanlar vergidən daha az yayınanlar sırasındadır. Ə.Burçin vergi öhdəliyinə əməletməyə vergi azadolmaları, inflyasiya, siyasi və iqtisadi sabitlik kimi bir sıra amillərin də təsir etdiyini bildirdi.

## «AmCham» vergi siyasəti üzrə təşəbbüslərin gücləndirilməsində yaxından iştirak edir»



***«Holcim Azərbaycan» şirkətinin baş maliyyə direktoru, forumda Amerika-Azərbaycan Ticarət Palatasını (AMCHAM) təmsil edən Oliver Vilke*** «İctimai və özəl sektorlar arasında dialoq vergi siyasəti təşəbbüslərinin dərinləşdirilməsi vasitəsi kimi: biznes assosiasiyalarının rolu» mövzusunda çıxışının əvvəlində bildirdi ki, əsası 15 fevral 1912-ci il tarixində İsveçrənin Holderbank şəhərində qoyulan müəssisə Azərbaycanda «Qaradağ Sement» adı ilə işə başlayıb, hazırda isə «Holcim Azərbaycan» brendi ilə təkcə yeni quru soba xətlərinə 300 mln. avro sərmayə qoyub ki, bu, qeyri-neft sektoruna yatırılan ən iri investisiyadır. «AmCham»ın ölkəmizdəki fəaliyyətinə də toxunan Oliver Vilke bu təşkilatı Azərbaycanda ən böyük biznes assosiasiyası adlandırdı. Bildirdi ki, «AmCham»a 250 şirkət daxildir: onların 25%-i ABŞ, 35%-i digər xarici şirkətlər, 40%-i isə iri Azərbaycan şirkətləridir. Ölkədəki 41 enerji şirkəti, 22 ən böyük İKT şirkəti, 20 ən böyük bank bu quruma daxildir. Təşkilat özəl sektora məsləhətlər verir, vergi siyasəti üzrə təşəbbüslərin sahibkarlar tərəfindən daha yaxşı başa düşülməsi üçün təşviqi işlər görür. Şəffaflıq və dinamizmi əsas prinsiplər hesab edən qurum hökumət və biznes ictimaiyyəti üçün vacib olan bütün məsələlərin müzakirəsinin keçirilməsi məqsədilə açıq platformanın qurulmasında da fəal iştirak edir. 2012-ci ildə «AmCham» Azərbaycanda Vergi Məcəlləsinə dəyişikliklər prosesinin müxtəlif mərhələlərinə cəlb edilib, əlverişli investisiya mühitini təşviq edən effektiv vergi siyasətinin qurulmasına konstruktiv töhfə verilməsinə imkan yaradan müzakirələrə qatılıb. «AmCham» gələcəkdə də vergi siyasəti üzrə təşəbbüslərin gücləndirilməsində yaxından iştirak edəcək.

## «Elektron auditin tətbiqi vergi intizamını gücləndirəcək»



***Forumun ikinci sessiyasında «Azərbaycanda elektron vergi auditi sisteminin yaradılması» mövzusunda çıxış edən vergilər nazirinin müşaviri Asəf Əsədov*** 2 il əvvəl «E-Audit» Tvinninq layihəsinin təqdimat mərasiminin keçirildiyini diqqətə çatdırdı. Bildirildi ki, Vergilər Nazirliyinin Niderland Krallığının Vergi Administrasiyası ilə birgə reallaşdırdığı bu layihə Avropa Birliyi tərəfindən maliyyələşdirilir və respublikanın vergi sisteminin inkişafı baxımından mühüm əhəmiyyətə malikdir. Təqdimat zamanı vurğulandı ki, Vergi Məcəlləsində edilmiş son dəyişikliklər respublikada e-auditin tətbiqi üçün hüquqi əsaslar yaradıb: «İlk növbədə, e-audit iri müəssisələrdə tətbiq olunacaq. Qanunla bağlı vergi ödəyiciləri tərəfindən təqdim edilən elektron məlumatların vergi orqanlarının ofisində emal olunması imkanları artacaq. Bunun üçün ən müasir audit metodları və texnologiyaları tətbiq olunacaq və Azərbaycanda audit sistemi inkişaf etdiriləcək. Bu sistemin vacibliyi odur ki, yoxlamalara sərf edilən inzibatı yükü və xərcləri artırmamaq şərtilə vergidən yayınma və fırıldaqçılığın qarşısı alınacaq. Digər tərəfdənsə, vergi ödəyicilərinin intizamlı olması üçün stimul və şərait yaradılacaq».

Bütün ölkələrdə, o cümlədən inkişaf etmiş ölkələrdə belə, vergidən yayınma və fırıldaqçılığa qarşı ciddi mübarizə tədbirlərinin həyata keçirildiyini deyən A.Əsədovun fikrincə, diqqət, ilk növbədə, vergidən yayınmağa təsir edən səbəblərə yönəldilməlidir. Qeyd edildi ki, müasir audit yanaşması ilk olaraq vergi ödəyicisinin daxili nəzarət sistemində zəifliklərin aradan qaldırılmasını və vergi risklərinin əvvəlcədən qiymətləndirilməsini tələb edir: «Bu isə yalnız vergi orqanı ilə vergi ödəyicisi arasında əməkdaşlıq və məlumatların elektron formatda təqdim edilməsi platformasında mümkündür. Ona görə, vergidən yayınmaya qarşı strategiyamız vergi partnyorluğu konsepsiyasının və e-auditin tətbiqi əsasında qurulur və bu sahədə Vergilər Nazirliyi ciddi tədbirlər həyata keçirir».

Təqdimatda qeyd edildi ki, elektron auditin tətbiqi üçün ilk olaraq ən riskli vergi ödəyiciləri seçilir, həmin vergi ödəyiciləri üzrə ilkin təhlil işləri aparılır. Bura biznesin başa düşülməsi, müəssisənin iş prosesləri, informasiya, mühasibat və daxili nəzarət sistemləri ilə tanışlıq daxildir: «Bu ilkin planlaşdırma mərhələsindən sonra e-audit prosesinə start verilir və sonradan e-audit nəticələri müəssisədə dəqiqləşdirilir. Demək olar ki, audit proseslərinin 70%-i vergi ofisində həyata keçirilir. E-audit prosesində vergi ödəyicilərinin mühasibat kompüter sistemində biznes əməliyyatlarını göstərən elektron faylların verilməsi tələb edilir. Elektron fayllar (əsasən Excel formatında əks olunan çoxsütunlu e-cədvəllər) e-auditorun kompüterinə birbaşa və ya məsafədən nazirliyin xüsusi serverinə yüklənilir. Elektron məlumatların tamlığı və düzgünlüyü xüsusi testlər əsasında avtomatlaşdırılmış qaydada yoxlanılır. Nəticə olaraq e-audit texnologiyasının tətbiqi vergidən yayınma risklərinin 90-95% ehtimalla aşkar olunmasını mümkün edir. Hazırda Vergilər Nazirliyi tərəfindən hər sahə üzrə e-audit testləri hazırlanaraq yanvar ayından səyyar vergi yoxlamalarında tətbiq edilir».

A.Əsədovun sözlərinə görə, hazırda Tvinninq layihəsi üzrə pilot mərhələsi həyata keçirilir. E-audit texnologiyalarının tətbiq edilməsi məqsədilə Vergilər Nazirliyinin 10 nəfər mütəxəssisi üçün bir il ərzində 8 müxtəlif kursdan ibarət treninq proqramı həyata keçirilib, metodoloji rəhbərlik və təlim materialları hazırlanıb: «Hazırda neft, bank və ticarət sahələrində e-audit texnologiyaları müasir audit platformasında tətbiq edilir və ilkin nəticələri çox uğurludur: insan və vaxt sərfiyyatı dəfələrlə azalıb, eyni zamanda vergidən yayınma hallarının aşkarlanması potensialı ciddi şəkildə gücləndirilib. Alınmış nəticələr göstərir ki, Azərbaycanda audit sahəsində müasir e-audit texnologiyalarına əsaslanan sistemin yaradılması uğurla həyata keçirilir».

A.Əsədov, həmçinin, vurğuladı ki, layihənin tam tətbiqinin nəticəsi olaraq vergi ödəyiciləri üçün vergi yoxlamaları ilə bağlı inzibati yük təxminən 2-4 dəfəyədək azalacaqdır. Eyni zamanda, vergi ödəyiciləri e-mühasibatın və daxili nəzarət sisteminin beynəlxalq standartlara uyğun aparılmasında daha məsuliyyətli olacaqlar. Bütün bunlar isə bütövlükdə vergi intizamının və vergi daxilolmalarının artmasına imkan verəcəkdir.

## «Azərbaycan «Paying Taxes» reytinq cədvəlində mövqeyini möhkəmləndirir»



***Forumda «PricewaterhouseCoopers» şirkətinin partnyoru, vergi eksperti Mövlan Paşayev*** «Azərbaycanın vergi sistemində aparılan islahatların ölkənin «Paying Taxes» reytinqində mövqeyinə təsiri» mövzusunda çıxış edərək bildirdi ki, tərəfdaşı olduğu şirkət son səkkiz ildə Dünya Bankı ilə birlikdə müxtəlif ölkələrdə vergi sisteminin yükünün qiymətləndirilməsi üzrə tədqiqat aparır: «Bu tədqiqatlar, əsasən, üç göstərici üzrə həyata keçirilir. Qiymətləndirmələr zamanı ümumi vergi dərəcəsi, şirkətlərin vergi ödənişlərinin sayı və vergi qanunvericiliyinin tələblərinə riayət edilməsinə sərf edilən vaxt amilləri əsas götürülür. Bu unikal layihə 185 ölkəni əhatə edir və ardıcıl metodologiyalar əsasında vergi sistemlərinin inkişafı ilə bağlı məlumatlar öyrənilir. Nəticələr isə «Paying Taxes» - «Vergi ödənişi» adlanan hesabatda öz əksini tapır. Hesabat Dünya Bankının «Doing business» layihəsinin bir hissəsini təşkil edir» .

Azərbaycanın vergi sahəsində ardıcıl islahatlar həyata keçirdiyini deyən ekspert əlavə etdi ki, bunun nəticəsi kimi, 2009-cu ildən başlayaraq respublikamızın «Paying Taxes» hesabatında mövqeləri möhkəmlənib. 2009-cu ildə dünya üzrə hesabatda 102-ci yerdə olan Azərbaycan 2012-ci ilin hesabatına əsasən, mövqelərini möhkəmləndirərək 76-cı yerdə qərarlaşıb: «Azərbaycanın qısa müddətdə 30 pillə irəliləməsi, ilk növbədə, vergi inzibatçılığının təkmilləşdirilməsi və vergi mühitinin liberallaşdırılması tədbirlərinin nəticəsi sayılmalıdır. Vergi ödənişləri vaxtı 23 saatdan 18 saata, hesabatların hazırlanması və ödənmə vaxtı 376 saatdan 214 saata, ümumi vergi dərəcəsi isə 41%-dən 40%-ə enmişdir. Lakin hesabat tərtib olunarkən Azərbaycanda Vergi Məcəlləsinə edilmiş son əlavə və dəyişikliklər nəzərə alınmamışdır. Odur ki, biz 2014-cü ilin hesabatında respublikanın reytinqinin daha da yaxşılaşacağını əminliklə deyə bilərik».

Qeyd olundu ki, son illər vergi sistemində həyata keçirilən islahatlar - ƏDV depozit hesabının tətbiqi, bəyannamələrin elektron formada təqdim edilməsi, vergilərin elektron formada ödənişi, fiziki və hüquqi şəxslərin real vaxt rejimində qeydiyyatının reallaşdırılması və digər yeniliklər mühüm rol oynayıb. Ekspert respublikada vergi dərəcələrinin azaldılması və optimallaşdırılması sahəsində həyata keçirilən tədbirlərin vergi mühitinə müsbət təsir göstərdiyini də xüsusi vurğuladı: «Azərbaycan hesabatların hazırlanması vaxtına görə Mərkəzi Asiya və Şərqi Avropa ölkələrinin üstələyir. Təhlillər göstərir ki, respublikada mənfəət vergisi üzrə hesabatların hazırlanmasına 60 saat, muzdlu işlə bağlı vergi üzrə hesabatların hazırlanmasına 97 saat, ƏDV və aksiz vergilərinin hazırlanmasına isə 57 saat sərf olunur. Ümumilikdə, vergi hesabatlarının hazırlanmasına 214 saat sərf olunur. Halbuki, Mərkəzi Asiya və Şərqi Avropa ölkələrində analoji göstərici 261 saatdır. Respublikamız vergilərin ödənişinə görə Avstriya, Rusiya, Ukrayna və digər ölkələrdən irəlidədir».

Təqdimatda Azərbaycanın beynəlxalq vergi reytinqi cədvəlindəki digər uğurlu göstəriciləri barədə də geniş məlumat verildi.

## IOTA baş əlaqələndirici şəxslərinin növbəti forumu Bakıda keçiriləcək



***Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) eksperti Anne Paavonaho*** «ƏDV fırıldaqçılığı ilə mübarizə» mövzusunda təqdimatında, ilk növbədə, təmsil etdiyi beynəlxalq qurumun yaranma məqsədləri və fəaliyyət prioritetləri barədə ətraflı məlumat verdi. Bildirdi ki, 1996-cı ildə 7 Avropa ölkəsi tərəfindən təsis olunmuş IOTA hazırda Avropadaxili Vergi Administrasiyaları Təşkilatı kimi fəaliyyət göstərir. Hazırda təşkilatın üzvlərinin sayı 46-ya çatıb.

Təşkilatın 2013-cü il üzrə fəaliyyət proqramına toxunan ekspert qarşıdakı müddətdə «Vergi müqavilələrinin tətbiqi», «ƏDV dələduzluğu ilə bağlı problemlərin həlli: qabaqcıl təcrübələr», «Vergidən yayınma hallarına qarşı mübarizə», «Transfert qiymətlərinin təyini məsələləri» mövzusunda seminarların, «İri vergi ödəyiciləri üçün forum»un, «Təlim forumu»nun, habelə «ƏDV dələduzluğuna qarşı mübarizə üzrə forum»un keçiriləcəyini diqqətə çatdırdı.

Bildirildi ki, hazırda IOTA beynəlxalq miqyasda geniş yayılmış vergi cinayətlərinin qarşısının alınması, bu sahədə səmərəli qabaqlayıcı tədbirlərin həyata keçirilməsi üçün tədqiqatlar aparır. Anne Paavonahonın sözlərinə görə, ƏDV dələduzluğuna və saxta bəyannaməyə daha çox neft məhsullarının satışı, metallurgiya və qiymətli metalların satışı sahələrində rast gəlinir: «Metal qırıntıları və tullantılarının, neft məhsullarının satışı zamanı saxta bəyannamələrin verilməsinə, pul vəsaitlərinin offşor bank hesablarına köçürülməsinə geniş rast gəlinir. Eyni zamanda, qızılın saxtalaşdırılması zəminində aldatma hallarına da geniş rast gəlinir. Bəzən isə saxta sövdələşmələr əsasında ticarət edilir, mal dövriyyəsi isə aparılmır».

Anne Paavonaho ümidvar olduğunu bildirdi ki, fevralın 19-dan 21-dək IOTA-ya üzv ölkələrin baş əlaqələndirici şəxslərinin iştirakı ilə keçiriləcək Bakı Forumu bu və digər aktual məsələlərin müzakirəsi baxımından faydalı olacaqdır.

Davamı 5-ci səhifədə

# II Vergi Forumu: «Azərbaycanın vergi sistemi: reallıqlar və perspektivlər»

Əvvəli 4-cü səhifədə

## «Əmək müqavilələri dövlət gəlirlərinin təmini baxımından mühüm əhəmiyyət kəsb edir»



***Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondunun rəhbəri Sabit Bağırov*** «Əmək müqavilələrinin leqallaşmasının sosial-iqtisadi problemləri» mövzusunda məruzəsində bildirdi ki, əmək müqavilələri fərdi və ictimai rifahın, dövlət gəlirlərinin təmin edilməsi, iqtisadiyyatın idarə edilməsi prosesində daha etibarlı qiymətləndirmələr və proqnozların müəyyənləşməsi baxımından mühüm əhəmiyyət kəsb edir. İşçi ilə əmək münasibətlərinin tənzimlənməsi, müxtəlif itki və problemlər risklərinin azaldılması, qanunvericilikdə nəzərdə tutulan əmək hüquqlarının işəgötürən tərəfindən təmin edilməsi, daha yüksək pensiya təyin edilməsində əsas hüquqi vasitələrdən biridir. Əmək müqavilələrinin imzalanmamasının əsas səbəblərindən bəhs edən S.Bağırov burada imzalama motivlərinin zəifliyi, ölkədə tətbiq edilən sosial model (yüksək sosial yük), işçinin əmək müqaviləsinə biganəliyi, müqavilənin mahiyyətini dərk etməməsi, tətbiq edilən pensiya modelinin ədalətsizliyi kimi amillərlə səciyyələndirdi.

S.Bağırov hər ölkənin özünün sosial modelini inkişaf etdirdiyini, bununla yanaşı, Avropa Komissiyasının önəm verdiyi əsas modellərə əsaslanan sosial proqramlar hazırladığını diqqətə çatdırdı: «Hazırda dünyada, əsasən, iki sosial modelə - Bismark və Beveric modellərinə üstünlük verilir. Avropa Birliyi ölkələrində bu modellərin əsasında müxtəlif sosial layihələr hazırlanıb. Əksər ölkələrdə sosial sığorta ödənişlərini həm işəgötürən, həm də işçilər edirlər. Bəzi ölkələrdə, məsələn, Avstriya, Belçika, Almaniya, Niderland, Fransada sosial ödənişlərin böyük qismini işçilər özləri ödəyirlər. İtaliyada, böyük hissə işəgötürənlər tərəfindən ödənilir. Finlandiyada və İsveçdə isə sosial ödənişləri yalnız işəgötürənlər ödəyir. Danimarkada bu ödəniş dövlət büdcəsi vasitəsilə tənzimlənir. ABŞ-da isə sahibkarlar bu ödənişlərdən faktiki olaraq azaddırlar».

Dünyada sosial və iqtisadi azadlıqlarla bağlı «Heritage» Fondunun və «Wall Street Journal»ın 2012-ci il qiymətləndirmələrinə toxunan S.Bağırov Azərbaycanın iqtisadi azadlıq dərəcəsinin 58, 9 olduğunu, inzibati idarəetmə və iqtisadi diversifikasiyanın ümumi makroiqtisadi vəziyyətin yaxşılaşmasına şərait yaratdığını, qlobal ticarətə qoşulma, investisiya artımı və yeni vergi dəyişikliklərinin bazar prinsiplərinin yüksəlməsinə gətirib çıxardığını bildirdi.

## «Uğur uğur gətirər»



***Beynəlxalq Vergi və İnvestisiya Mərkəzinin prezidenti Daniel Vitt*** «Vergi və iqtisadi islahatlar: Azərbaycan xalqı üçün tərəqqi» mövzusunda çıxışında son 20 ildə ölkədə həyata keçirilən vergi və investisiya islahatlarının mühüm istiqamətlərindən bəhs etdi: «Azərbaycanda tərəqqinin əsas səbəblərindən biri bir çox sahələrdə şəffaf maliyyə, hüquqi və normativ bazaların yaradılmasıdır. Azərbaycan hasilat sektorunda şəffaflığın təmini təşəbbüsünü tətbiq edən liderlər sırasındadır.

Bundan əlavə, siz neft sektorundakı kontraktlarınıza tam təminat vermisiniz. Kontraktlara yenidən baxılması nəzərdə tutulmur və bu, investorları qorxutmur. Bu isə iqtisadiyyatınızın neft sektorundan kənar sahələrini hərtərəfli inkişaf etdirməyə qabil olmağınız üçün başlıca amildir. İnvestisiya dünyası sizin neft və digər sənaye sahələrinə necə yanaşdığınızı çox diqqətlə izləməyə davam etməkdədir. Bu yanaşma həmin sektorlardan kənar sahələrə əlavə investisiyaları cəlb etmək və həmin sahələri hərtərəfli inkişaf etdirmək bacarığınıza birbaşa təsir göstərəcək».

Daniel Vitt bildirdi ki, adambaşına düşən ÜDM 2000-ci ildəki 650 dollardan 2012-ci ildə 7400 dollara çatmışdır və bu göstərici mövcud tendensiyalarla bir neçə ildən sonra OECD-nin 15000 ABŞ dolları təşkil edən üzv dövlətləri səviyyəsinə çata bilər». Azərbaycan bir çox tədbirlər sayəsində iqtisadi yüksəliş, adambaşına düşən ÜDM, Mərkəzi Bank və Dövlət Neft Fondunun ehtiyatları, neft hasilatı üzrə irəliləyişini davam etdirmişdir. Nəticədə xalqın firavanlığı təmin edilmişdir. Bu, həqiqətən də bu gün bir çox Avropa ölkələri üçün münasib ibrət dərsidir».

Rəhbərlik etdiyi mərkəzin bir sıra təlim kurslarında, beynəlxalq konfranslarda və texniki yardım proqramlarında Vergilər Nazirliyi ilə tərəfdaşlıq etdiyini bildirən Daniel Vitt qeyd etdi ki, hər hansı bir ölkənin ən vacib ticarət siyasətini onun vergi siyasəti təşkil edir. «Azərbaycan qəbul etdiyi Vergi Məcəlləsi və həyata keçirilən vergi islahatının nəticələrinə görə, keçmiş sovet respublikaları arasında liderlərdəndir. Azərbaycan vergi administrasiyası vergi ödəyicisinə xidmət, maarifləndirmə və «bir pəncərə» prinsipinin tətbiqində birincidir».

Natiq digər sektorlarda da eyni nəticələri əldə etmək üçün investisiyaların cəlb olunması, qorunub saxlanması və neft sektorunun inkişaf etdirilməsi ilə cəsarətli addımların atılmalı olduğunun vacibliyini qeyd edib: «Cəsarətli addımların atılması Bakının maliyyə mərkəzinə çevrilməsinin reallaşdırılmasında və yaxud kənd təsərrüfatı məhsullarının emalında, yüksək texnologiya sektorlarının inkişaf etdirilməsində zəruri olacaq. Uğur uğur gətirər. Azərbaycanda birinci nəsil investisiyaların uğuru müxtəlif sahələrə növbəti nəsil investisiyaların cəlb edilməsi üçün vacibdir», - deyən D.Vitt Azərbaycanın investisiya və şəffaflığı təmin edən əlavə islahatlarla bağlı növbəti uğurlu addımlar atacağına inandığını dedi.

## «Neft ölkələrində vergi gəlirləri həlledici fiskal rol oynayır»



***Belçikanın «Ecomod Network» şirkətinin prezidenti, professor Əli Bayar*** «Neft istehsalçısı olan ölkələrdə maliyyə problemləri və siyasəti» mövzusunda məruzəsində neft faktorunun iqtisadiyyata təsirlərini qeyd etdi: «Zəngin neft ehtiyatlarına malik ölkələr bu ehtiyatlardan əhəmiyyətli dərəcədə faydalansa da, bir sıra hallarda neft ixrac edən əksər ölkələrin iqtisadi göstəriciləri qeyri-qənaətbəxş olur. Bəzi analitiklər, bu baxımdan, nefti xoşbəxtlik və bədbəxtlik amili kimi səciyyələndirirlər. Bu ehtiyatlardan səmərəli istifadə olunmasında hökumət əhəmiyyətli rol oynayır. Neft gəlirlərindən asılılığa görə dövlətlər arasında böyük fərq var. Zəngin neft ehtiyatları olan əksər ölkələrdə dövlətin ümumi gəlirlərinin yarısından çoxu neft hasilatından əldə olunan gəlirlərin payına düşür, bu ölkələr fiskal siyasətin formalaşdırılması və həyata keçirilməsində bir sıra çətinliklərlə üzləşir, nəticədə ciddi makroiqtisadi təsirlərə məruz qalırlar. Neft - nəsillərarası ədalətli bölgü ilə bağlı mürəkkəb suallar yaradan, tükənən sərvətdir. Neft istehsalçısı olan ölkələrin bir çoxunda yoxsulluq hələ də geniş yayılmaqdadır. Neftin qiyməti çox dəyişkəndir və bu, vergi gəlirlərində böyük tərəddüdlərə səbəb ola bilir. Neftin qiymətinin aşağı düşməsi bəzi hallarda maliyyə böhranına gətirib çıxarır. Son illər müşahidə olunan budur ki, neftin qiymətinin qeyri-sabitliyi ilə bağlı olaraq maliyyə xərclərinin dəyişməsi modeli bəzi neft hasil edən ölkələrdə böyük iqtisadi və sosial xərclərə səbəb olub».

Neft ölkələrində vergi rejimlərinin rolunu qeyd edən Əli Bayar vergilərin əhəmiyyətli dərəcədə fərqləndiyini, bu ölkələrin fiskal rejimlərində çoxsaylı alətlərdən istifadə edildiyini diqqətə çatdırdı: «Neft istehsalçısı olan ölkələrdə hökumət üçün vergi gəlirləri həlledici fiskal rol oynayır. Qeyri-neft gəlirləri üzrə fiskal tarazlığa fiskal siyasətin göstəricisi kimi xüsusi diqqət yetirilməli, bu, büdcədə və maliyyə təhlilində nəzərəçarpacaq dərəcədə əks etdirilməlidir. Qeyri-neft balansı, xüsusilə də xərclər tədricən tənzimlənməlidir ki, bu da öz növbəsində dövlət xərclərinin dəyişkən neft gəlirlərindən asılı olmamasını təmin edir».

Professor Əli Bayar fiskal siyasətin formalaşdırılması zamanı böyük makroiqtisadi məqsədlərin dəstəklənməsinin nəzərə alınmasının vacibliyini vurğuladı. Onun sözlərinə görə, dəyişkən neft qiymətlərinə fiskal reaksiyaları aradan qaldırmaq məqsədi daşıyan və dövlətin maliyyə vəziyyətinin neftin qiymətinin aşağı düşməsinə tab gətirmək üçün kifayət qədər güclü olmasını təmin edə bilən strategiyası olmalıdır. Neft istehsal edən ölkələrin gələcəyi üçün iqtisadi diversifikasiya başlıca amildir.

## «Vergilər Nazirliyini fərqləndirən cəhətlərdən biri də başladığı hər bir işi axıra çatdırmaq bacarığıdır»



***«Deloitte&Touche» şirkətinin partnyoru Nuran Kərimov*** «Elektron vergi auditinin hüquqi tənzimlənməsi» mövzusunda təqdimatında vergi xidməti əməkdaşlarının peşə bayramı ərəfəsində keçirilən II Vergi Forumunun səmərəli təşəbbüslər və müzakirələr üçün yaxşı imkanlar yaratdığını bildirdi.

N.Kərimovun sözlərinə görə, vergi qanunvericiliyində edilmiş dəyişikliklər yeni qlobal çağırışlara əsaslanmaqla, ölkənin inkişaf hədəflərinə istiqamətlənmiş məqsədlərə xidmət edir. Bu dəyişikliklərlə vergi qanunvericiliyinin beynəlxalq normalara uyğunlaşdırılması, habelə son bir neçə il ərzində qarşıya çıxan mübahisəli məsələlərin həlli ilə bağlı məsələlər nəzərə alınmışdır.

Qeyd olundu ki, Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər sırasında mühüm yeniliklərdən biri də elektron daşıyıcılarda olan məlumatlar əsasında vergi auditinin aparılmasına imkan verən hüquqi rejimin yaradılmasıdır: «İnformasiya-kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyi bir zamanda vergi auditinin elektron aparılması zamanın qaçılmaz tələbidir. Dünyanın bir çox vergi administrasiyaları e-audit sisteminin tətbiqi prosesinin fərqli mərhələlərini yaşamaqdadırlar. Azərbaycanın da bu prosesdə xüsusi fəallığı ilə seçilən ölkələrdən biri olması olduqca sevindiricidir. Ümumiyyətlə, elektron xidmətlərin tətbiqi, informasiya kommunikasiyalarının ən son nailiyyətlərindən məharətdə istifadə edən öncül dövlət qurumu məhz Vergilər Nazirliyidir. Vergilər Nazirliyini fərqləndirən cəhətlərdən biri də budur ki, nazirlik başladığı hər bir işi axıra çatdırmağı bacarır».

Vergi Məcəlləsində vergi partnyorluğu sazişi ilə bağlı məsələnin əksini tapmasını hüquq sistemində inqilabi dəyişiklik kimi səciyyələndirən Nuran Kərimovun sözlərinə görə, bir çox Qərb ölkələrində mövcud olan bu institut vergi orqanı ilə vergi ödəyicisi arasında yüksək etimadın yaradılmasına xidmət edir. O, həmçinin, qeyd etdi ki, vergi orqanları ilə vergi ödəyiciləri arasında tərəfdaşlıq münasibətləri qarşılıqlı əməkdaşlıq əsasında qurulmaqla, vergilərin tam və vaxtında hesablanıb ödənilməsinin, vergi ödəyicilərinin işgüzar fəallığına və azad iqtisadi fəaliyyətinə xələl gətirmədən minimal resurslarla maksimum səmərəli vergi nəzarətinin təşkilidir: «Hesab edirəm ki, vergi tərəfdaşlığı sazişləri vergi ödəyicilərində maliyyə risklərini azaltmağa, dövlət-biznes münasibətlərində tərəfdaşlıq münasibətlərini genişləndirməyə imkan verəcəkdir».

Qeyd olundu ki, vergi öhdəliklərinə könüllü əməletmə səviyyəsinin yüksəldilməsi, vergi ödəyicilərinin məsuliyyətinin artırılması zamanın aktual çağırışlarından biridir: «Vergi mədəniyyətinin yüksəlməsi, vergi orqanı ilə vergi ödəyicisi arasında qarşılıqlı inam və etimadın artırılması, öz növbəsində, səyyar vergi yoxlamalarının sayının azalmasına gətirib çıxaracaqdır. Vergi partnyorluğu sazişi vergi orqanları ilə vergi ödəyiciləri arasında vergi risklərinin azaldılması üçün bağlanan könüllü sazişdir. Vergi ödəyicisinin vergi risklərinin minimallaşdırılması məqsədilə «Vergi partnyorluğu sazişi» bağlamaq üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi formada ərizə ilə vergi orqanına müraciət etmək hüququ vardır».

Bildirildi ki, mühasibat uçotu elektron formatda aparıldığı halda, vergi orqanının elektron auditin məqsədləri üçün vergi ödəyicisinin və onun filiallarının elektron daşıyıcılarındakı məlumatlarının verilməsini, həmin məlumatlara birbaşa və ya məsafədən çıxış imkanının yaradılmasını tələb etmək hüququ vardır. Nuran Kərimovun sözlərinə görə, vergi orqanı səyyar vergi yoxlamasına başlamazdan əvvəl göndərdiyi bildirişlə yoxlama üçün zəruri olan sənədləri, habelə elektron faylları vergi ödəyicisindən tələb edə bilər: «Vergi ödəyicisi belə bir tələb aldığı halda, həmin sənədləri və ya elektron faylları 15 iş günü müddətində vergi orqanına təqdim etməlidir. Elektron auditə imkan verən dəyişikliklərdən biri də odur ki, mühasibat sənədləri istər kağız, istərsə də elektron formada azı beş il müddətində saxlanmalıdır. Həmin məlumatların qanunla müəyyən olunmuş müddətdə təqdim edilməməsinə və ya bilərəkdən təhrif olunmasına görə 100 manat məbləğində maliyyə sanksiyası müəyyən edilmişdir».

## «Vergilərin könüllü əməletmə səviyyəsinin 2015-ci ildə 82-85%-ə çatdırılacağı planlaşdırılır»



***Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət idarəsinin rəisi Elçin Məmmədov*** «Vergi ödəyicilərinə xidmətin əsas hədəfi - könüllü əməletmə səviyyəsinin yüksəldilməsidir» mövzusunda məruzə edərək bildirdi ki, 2002-ci ildə yaradılan xidmət idarəsinin əsas məqsədi məcburi yığımdan könüllü əməletməyə keçidin təmin edilməsindən ibarət olub. İdarənin prioritet iş istiqamətləri vergi ödəyiciləri arasında vergi qanunvericiliyi ilə bağlı biliklərin yaxşılaşdırılması, vergi mədəniyyətinin ümumi səviyyəsinin qaldırılması, vergi orqanları və biznes strukturları arasında qarşılıqlı əlaqənin genişləndirilməsi, ödəyicilərin istənilən vaxt, istənilən yerdən istənilən məlumatı ala bilmələri imkanlarının yaradılmasını əhatə edir. İdarənin mövcud informasiya mənbələri «195» Telefon-məlumat xidməti, taxes.gov.az internet saytı, vergi orqanlarının vergi ödəyicilərinə xidmət strukturları, vergi ödəyicilərinə xidmət mərkəzləri və «Vergi dostları» şəbəkəsidir: «195» Telefon-məlumat xidməti 2003-cü ildən Bakı şəhərini, 2006-cı ildən respublikanın ərazisini əhatə edir. 2009-cu ildə bu xidmətə İqtisadi İnkişaf Nazirliyi də qoşulub. Mərkəzdə göstərilən xidmətlər sualların cavablandırılması, ərizə və şikayətlərin qəbulu, qısa mesajların göndərilməsi və əksəlaqə xidmətlərindən ibarətdir. Telefon-məlumat mərkəzində cavablandırılan müraciətlərin statistikasına baxsaq, son illərdə bu sahədə əhəmiyyətli dinamikanın baş verdiyini görmək olar. 2012-ci ildə bu xidmətlə bağlı müraciət edənlərin sayı 273 mini ötüb. Mərkəz 2011-ci ildə keçirilən monitorinqin nəticəsinə görə, Avropa İttifaqının EN-15838 beynəlxalq sertifikatını alıb».

Elçin Məmmədov Vergilər Nazirliyinin rəsmi internet səhifəsinin Azərbaycan, ingilis və rus dillərində fəaliyyət göstərdiyini, burada qanunvericilik aktları, sual-cavab, e-xidmətlər, bəyannamə formaları və onların doldurulma qaydaları, vergilər naziri ilə birbaşa əlaqə, vergi təqvimi, vergi daxilolmalarının statistikası, vergi orqanlarının interaktiv xəritəsi, video-bələdçi, vergilərlə bağlı testlər və digər bölmələrin yerləşdiyini diqqətə çatdırdı. «Saytın sual-cavab bölməsində vergi ödəyicilərinin sualları operativ şəkildə cavablandırılır. Son illərin statistikasına nəzər yetirsək, bu sahədə xeyli irəliləyişlərin olduğunu görərik. 2003-cü ildə cəmi 200 sual cavablandırılıbsa, 2012-ci ildə bu rəqəm 2298-ə çatıb. Sayta müraciət edənlər üçün bir sıra imkanlar yaradılıb, onlar «Vergilər naziri ilə əlaqə», «Vergi orqanı əməkdaşlarının fəaliyyəti ilə əlaqədar saxtakarlıq və ya korrupsiya halları, eləcə də sahibkarlıq fəaliyyətində vergi qanunvericiliyi ilə əlaqədar hüquq pozuntuları barədə», «Vergi orqanı əməkdaşlarının qeyri-etik davranışı barədə», «Video-qəbul» bölmələrini seçməklə onları maraqlandıran məsələlərə cavab ala bilirlər. Nazirliyin rəsmi internet istifadəçilərinin sayı hazırda 3 milyonu ötüb. Sayt 2008-2012-ci illərdə «İnformasiya açıqlığı» üzrə dövlət qurumları arasında birinci yerə layiq görülüb. Vergilər Nazirliyinin fəaliyyəti ilə bağlı «Facebook», «Twitter», «Youtube» sosial şəbəkələrində geniş materialların yerləşdirildiyini də qeyd edən natiq «Face-vizit» layihəsinin istifadəçilərdə böyük maraq yaratdığını bildirdi.

E.Məmmədov vergi ödəyicilərinə xidmət mərkəzlərinin fəaliyyətinə toxunaraq onlardan dördünün Bakıda, birinin Gəncədə, birinin Sumqayıtda, 34-nün isə bölgələrdə fəaliyyət göstərdiyini, 2012-ci ildə mərkəzlərə müraciət edənlərin sayının 102666-ya, göstərilən xidmətlərin sayının isə 240534-ə çatdığını bildirdi. Qeyd edildi ki, «Vergi orqanları tərəfindən vergi ödəyicilərinə göstərilən xidmətlərin İnkişaf Konsepsiyası (2011-2015)» adlı sənəddə əsas hədəf kimi vergilərin məcburi yığımdan tədricən könüllü ödəməyə keçid prosesinin sürətləndirilməsi nəzərdə tutulmuşdur. Konsepsiyanın həyata keçirilməsi nəticəsində könüllü əməletmə səviyyəsinin 2015-ci ildə 82-85%-ə çatdırılacağı gözlənilir.

# II Vergi Forumu: «Azərbaycanın vergi sistemi: reallıqlar və perspektivlər»

Əvvəli 5-ci səhifədə

## «QHT-lər vergi sistemindəki islahatları yüksək qiymətləndirirlər»



*«Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafında dövlət qurumları və QHT-lərin əməkdaşlığının rolu» mövzusunda çıxış edən Milli QHT Forumunun (MQF) sədri Rauf Zeyni* bildirdi ki, Vergilər Nazirliyinin təşəbbüsü ilə «Azərbaycanın vergi sistemi: reallıqlar və perspektivlər» mövzusunda ənənəvi forumun təşkili vətəndaş cəmiyyətinin inkişafı və ümumilikdə cəmiyyətdə şəffaflığın artırılması baxımından mühüm əhəmiyyətə malikdir: «Vergilər Nazirliyi Azərbaycan Respublikasında iqtisadiyyatın idarətmə strukturunu təkmilləşdirmək, dövlət maliyyə intizamını gücləndirmək, dövlət büdcəsinə daxilolmaların yığılmasının səmərəliliyini daha da artırmaq məqsədilə yaradılmışdır. Vergilər Nazirliyi yaradıldıqdan sonra qeyri-leqal məşğulluğun leqallaşdırılması, iş yerlərinin rəsmiləşdirilməsi, muzdlu işlə əlaqədar əməkhaqqından tutulan gəlir vergisi üzrə vergitutma bazasının genişləndirilməsi istiqamətində mühüm işlər görülmüşdür. Son illər ölkədə vergi sisteminin müasir dövrün tələblərinə, o cümlədən beynəlxaq standartlara uyğun formalaşdırılması və inkişaf etdirilməsi, elektron xidmətlərin ən yüksək səviyyəyə çatdırılması beynəlxalq təşkilatlar və ekspertlər tərəfindən yüksək qiymətləndirilir».

Qeyd edildi ki, müasir dünyada dövlət və özəl sektorla yanaşı, ictimai sektorun və bütövlükdə vətəndaş cəmiyyətinin inkişafı da hər bir ölkənin hərtərəfli inkişafının əsas göstəricilərindən sayılır. Çıxışda vətəndaş cəmiyyətinin formalaşmasına xidmət edən genişmiqyaslı islahatlar, o cümlədən bu sahədə qanunvericilik bazasının formalaşdırılması istiqamətində atılan addımlar barədə ətraflı məlumat verildi: «1997-ci ildə BMT ilə Azərbaycan dövləti arasında vətəndaş cəmiyyətinin inkişafına xidmət edən Memorandumun imzalanması, 1999-cu ilin iyununda MQF-nin yaradılması, 2000-ci ildə Milli Məclisdə «QHT-lər (ictimai birliklər və fondlar) haqqında» Qanunun qəbul olunması, indiyədək 3000-ə qədər QHT-nin dövlət qeydiyyatına alınması bu işlərin bir qismidir. Prezident İlham Əliyevin 27 iyul 2007-ci il tarixli sərəncamı ilə «Azərbaycan qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyası»nın təsdiq olunması, 2008-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının yaradılması vətəndaş cəmiyyətinin inkişafı naminə atılmış mühüm addımlar olmuşdur».

Rauf Zeyni bildirdi ki, MQF yarandığı gündən dövlət qurumları ilə əməkdaşlığın gücləndirilməsi istiqamətində məqsədyönlü və ardıcıl fəaliyyət göstərir: «QHT-hökumət dialoqunun gücləndirilməsi bu gün də MQF-nin fəaliyyətinin prioritet istiqamətlərindəndir. Hazırda MQF İqtisadi İnkişaf Nazirliyi, Vergilər Nazirliyi və digər dövlət qurumları ilə əməkdaşlığın genişləndirilməsi, şəffaflığın artırılması, ictimai nəzarətin gücləndirilməsi məqsədilə ictimai şuraların yaradılmasını təklif edir. İnanıram ki, yaxın gələcəkdə «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasından irəli gələrək, QHT-dövlət əməkdaşlığı yeni mərhələyə yüksələcəkdir».

*Forumdan materialları hazırladılar:*
**Samir MUSTAFAYEV, Elbrus CƏFƏRLİ**

# Forum iştirakçılarının təəssüratları

*Ölkəmizin iqtisadi həyatının mühüm hadisələrindən birinə çevrilən Vergi Forumunun ən böyük və faydalı özəlliyi bundadır ki, bu mötəbər tədbir gələcəkdə həyata keçiriləcək bir çox fəaliyyətlər üçün səmərəli başlanğıc rolunu oynayır. Tədbirdə söylənilən bir çox maraqlı fikirlər, irəli sürülən əsaslandırılmış təkliflər iqtisadi həyatımızın gündəliyində özünə layiqli yer tutur. Əslində, vergi mühitinin liberallaşdırılması, vergi inzibatçılığının təkmilləşdirilməsi kimi zamanın tələbindən irəli gələn genişmiqyaslı islahatları ictimai rəyi, vergi ödəyicilərinin maraqlarını nəzərə almadan səmərəli şəkildə həyata keçirmək də çətin olardı.*

*Cəmiyyətimizin ümumi maraqları naminə faydalı təşəbbüslər üçün səmərəli platforma təmin edən tədbirlə bağlı iştirakçıların xoş təəssüratları, müsbət rəyləri II Vergi Forumunun ölkəmizin iqtisadi həyatı üçün nə qədər lazımlı hadisə olduğunu bir daha təsdiqləyir...*

### «Vergi Forumu Vergilər Nazirliyi ilə vətəndaş cəmiyyəti qurumları arasında işgüzar əlaqələrin genişlənməsinə xidmət edəcək»

***Əli Hüseynli, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri:***



- Ölkəmizdə həyata keçirilən iqtisadi islahatlarda vergi orqanlarının böyük rolu var. Digər dövlət orqanları ilə müqayisədə Vergilər Nazirliyi yeni layihələrin sayı, həyata keçirilən islahatların intensivliyi, müasir informasiya texnologiyalarının tətbiqi baxımından daim öndədir. Dünya standartlarına cavab verən yeni texnologiyaların tətbiqi vergi orqanlarının fəaliyyətində iş adamları ilə qurulan münasibətlərin şəffaflığına xidmət edir ki, bu da, öz növbəsində, ölkədə aparılan korrupsiyaya qarşı mübarizəyə öz töhfəsini verir. Dövlət başçısı cənab İlham Əliyevin imzaladığı fərmanlarda, verdiyi tövsiyə və tapşırıqlarda ölkədə korrupsiyaya qarşı mübarizənin preventiv üsullarla, şəffaflıq metodlarının artırılması ilə həyata keçirilməsi nəzərdə tutulur. Hesab edirəm ki, bu istiqamətdə Vergilər Nazirliyinin fəaliyyəti digər dövlət qurumlarına örnək ola bilər. Düşünürəm ki, bugünkü tədbir Vergilər Nazirliyi ilə vətəndaş cəmiyyəti qurumları və qeyri-hökumət təşkilatları arasında sıx işgüzar əlaqələrin daha da genişlənməsinə xidmət edəcək. Vergilər Nazirliyinin rəhbərliyini və əməkdaşlarını son illərdə əldə etdikləri nailiyyətlər və peşə bayramı münasibətilə təbrik edir və bu uğurların davamlı olmasını arzulayıram».

### «Forum vergi ödəyicilərinin məlumatlandırılması baxımından çox əhəmiyyətlidir»

***Xanhüseyn Kazımlı, Milli Məclisin deputatı, Qiymətləndiricilər Cəmiyyətinin sədri:***



- Bazar iqtisadiyyatı şəraitində iqtisadiyyatın tənzimlənməsi problemlərinin müvəffəqiyyətlə həll olunmasında vergi sistemi böyük rol oynayır. Son illər vergi sistemində həyata keçirilən islahatlar müstəqilliyin möhkəmləndirilməsi istiqamətində atılan addımlarla üst-üstə düşür.

Fəaliyyətim, əsasən, qiymət problemi ilə bağlı olduğundan qeyd etməliyəm ki, son dövrlər istər bələdiyyələr, istərsə də Vergilər Nazirliyi əmlak vergisinin yığımı ilə bağlı müəyyən çətinliklərlə üzləşirdilər. Uzun müddətdir ki, bu sahədə müşahidə edilən problemlər əmlakın qiymətləndirilməsi haqqında qanunvericiliyin təkmilləşdirilməsini tələb edir. Artıq «Qiymətləndirmə fəaliyyəti haqqında» yeni qanun layihəsi hazırlanıb. Vergi Məcəlləsinə də əmlak vergisi ilə bağlı əhəmiyyətli dəyişikliklər edilib. Hesab edirəm ki, «Qiymətləndirmə fəaliyyəti haqqında» yeni Qanun əmlak vergisinin dövlət büdcəsinə tam və problemsiz ödənilməsini təmin edəcək.

Bugünkü forum haqqında isə onu deyə bilərəm ki, belə genişmiqyaslı tədbirlər vergi ödəyicilərinin məlumatlandırılması, onların hüquqlarının qorunması və vergi haqqında biliklərinin zənginləşməsi baxımından olduqca əhəmiyyətlidir».

### «Vergilər Nazirliyi öz işini açıq, şəffaf şəkildə qura bilib»

***Azay Quliyev, Milli Məclisin deputatı, QHT-lərə Dövlət Dəstəyi Şurasının rəhbəri:***



- Vergilər Nazirliyinin son illər həyata keçirdiyi islahatlar hamımıza bəllidir. Bu baxımdan, Vergilər Nazirliyinin dövlət qurumları içərisində ən islahatçı nazirlik kimi qəbul edilməsi çox ədalətli mövqedir. Bu gün Vergilər Nazirliyinin ən böyük uğuru xidmətlərin avtomatlaşdırılmasıdır. Nazirlik vətəndaşların rahat, asan şəkildə vergiləri ödəmələri üçün kifayət qədər şərait yaradıb. Vergilərlə bağlı islahatlar ölkə iqtisadiyyatının ana sütunlarından birini təşkil edən vergi siyasətinin nə dərəcədə uğurlu olduğunu göstərir. Vergi Forumunun ölkəmizin iqtisadi həyatında böyük rolu var. Bu forum informasiya, təcrübə mübadiləsi, beynəlxalq təcrübənin öyrənilməsi, həm də əldə edilmiş uğurların ictimaiyyətə çatdırılması baxımından əhəmiyyətlidir. Burada səsləndirilən fikirlər, müzakirələr, görülən işlər barədə verilən məlumatlar forumun necə lazımlı bir tədbir olduğunu göstərir. Onu da deyim ki, vətəndaş cəmiyyətinin əsas aktiv təbəqəsi hesab edilən qeyri-hökumət təşkilatları bu gün Vergilər Nazirliyinin işindən çox razıdır. Bu isə ondan irəli gəlir ki, Vergilər Nazirliyi öz işini açıq, şəffaf şəkildə qura bilib».

### «Vergilər Nazirliyinin informasiya açıqlığı müsbət qiymətləndirilməlidir»

***Osman Gündüz, Azərbaycan İnternet Forumunun prezidenti:***



- Son dövrlər aparılan müşahidələr göstərir ki, Vergilər Nazirliyi tərəfindən istər qanunvericiliyin, infrastrukturun təkmilləşdirilməsi, istərsə də yeni informasiya texnologiyalarının tətbiqi istiqamətində xeyli səmərəli addımlar atılıb. Bunlardan onlayn vergi ödənişinin, o cümlədən ölkədə nağdsız ödənişlərin təbliği ilə bağlı Vergilər Nazirliyinin fəaliyyətini xüsusi vurğulamaq istərdim. Təbii ki, bütün bu tədbirlər və həyata keçirilən islahatlar ölkədə vergi sisteminin sadələşdirilməsinə və təkmilləşdirilməsinə xidmət edir. İnformasiya açıqlığı baxımından da Vergilər Nazirliyinin fəaliyyəti müsbət qiymətləndirilməlidir. Belə ki, dövlət qurumlarının informasiya açıqlığı səviyyəsinin öyrənilməsi məqsədilə keçirilən müsabiqədə Vergilər Nazirliyinin rəsmi internet saytının artıq 5-ci ildir ki, ardıcıl olaraq birinci yerə layiq görülməsi vergi haqqında informasiyaların ictimayyət üçün açıq olduğunu, vergi fəaliyyətinin şəffaflıq prinsiplərinə əsaslandığını bir daha sübut edir. Bu gün keçirilən ikinci Vergi Forumu da Vergilər Nazirliyinin əldə etdiyi nailiyyətlərin davamıdır. Arzu edirəm ki, bu uğurlar davamlı olsun və Vergilər Nazirliyi bütün sahələrdə birinciliyi qoruyub saxlaya bilsin. Bir daha vergi sisteminin bütün əməkdaşlarını peşə bayramı münasibətilə təbrik edir, onlara işlərində yeni-yeni uğurlar arzulayıram».

### «Vergilər Nazirliyi ən çox elektron xidmətlər göstərən dövlət qurumudur»

***Vilayət Vəliyev, Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun direktoru:***



- Fəaliyyətində şəffaflığa nail olmaq hər bir dövlət qurumunun qarşısında duran əsas hədəflərdəndir. Düşünürəm ki, Vergilər Nazirliyi son bir neçə ildə sahibkarlıq subyektlərinin inkişafı, vergi daxilolmalarının təkmilləşdirilməsi istiqamətində həyata keçirdiyi islahatlar nəticəsində bu məqsədə nail olmuşdur. Xüsusilə Vergilər Nazirliyinin e-hökumət quruculuğu istiqamətində fəaliyyəti yüksək qiymətləndirilməlidir. 57 elektron xidmət göstərən Vergilər Nazirliyi dövlət orqanları içərisində bu sahədə öndə olan qurumdur. Sahibkarlıq subyektlərinin 2008-ci ildə «bir pəncərə» prinsipi üzrə, daha sonra onlayn rejimdə qeydiyyatına başlanması ilə vətəndaşlarla vergi orqanları arasında birbaşa canlı təmas, qeydiyyat prosesinə sərf edilən vaxt və vəsait itkisi, prosedur sayı minimuma endirilmişdir ki, bu da ölkədə əlverişli biznes mühitinin yaradılmasına, süründürməçilik hallarının aradan qaldırılmasına imkan vermişdir. Bundan başqa, 2012-ci ilin sonunda Vergi Məcəlləsində edilən dəyişikliklər nəticəsində bir sıra vergilər üzrə yeddi illik güzəşt dövrünün müəyyən edilməsi, bəzi vergi dərəcələrinin aşağı salınması, təbii ki, ölkədə sahibkarlığın inkişafına xidmət edən müsbət amillər kimi qeyd olunmalıdır. İkinci Vergi Forumu vergi sahəsində yerli və beynəlxalq təcrübənin öyrənilməsi baxımından əhəmiyyətlidir».

### «Nağdsız ödənişlər uğurla təşviq edilir»

***Fərid İsmayılzadə, «Golden Pay» şirkətinin direktoru:***



- Bu gün Vergilər Nazirliyinin ölkədə nağdsız ödənişlərin təbliqi ilə bağlı həyata keçirdiyi tədbirlər, məlumatlandırma və təbliğat kampaniyaları vətəndaşların nağdsız ödənişlərdən istifadəetmə vərdişlərinin yüksəlməsi baxımından çox əhəmiyyətlidir. Həyata keçirilən tədbirlər nəticəsində son illər cəmiyyətdə nağdsız ödənişlərdən istifadə vərdişi yüksəlmiş, ölkədə quraşdırılan POS-terminalların və nağdsız ödənişlərdən istifadə edənlərin sayı xeyli artmışdır. Cünki nazirlik nağdsız ödənişləri uğurla təşviq edir. Artıq ikinci dəfədir ki, Vergi Forumunda iştirak edirəm. Hesab edirəm ki, ildə bir dəfə belə geniş tədbirin keçirilməsi cəmiyyətin bütün nümayəndələrinə vergi haqqında geniş bilgilər və məlumatlar əldə etməyə imkan verir. Buna görə Vergilər Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığımı bildirir və işlərində müvəffəqiyyətlər arzulayıram».

### «Vergi ödəyiciləri və ictimaiyyət qarşısında hesabat nümunəsi»

***Sahib Məmmədov, Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının rəhbəri:***



- Ölkədə mərkəzi icra orqanları içərisində əhaliyə göstərdiyi xidmət sahəsində ASAN xidmət sisteminə keçmiş dövlət qurumu Vergilər Nazirliyidir. Vergi xidmətlərinin daha rahat və vaxt itirmədən elektron formada həyata keçirilməsi, nazirliyə ünvanlanan sualların tez, operativ şəkildə cavablandırılması hamı tərəfindən yüksək qiymətləndirilir. Son illərdə Vergilər Nazirliyinin vətəndaş cəmiyyəti ilə əməkdaşlığı isə xüsusi əhəmiyyət kəsb edir. Vətəndaş cəmiyyəti ilə əməkdaşlıq nazirlik daxilində şəffaflığın artmasına, korrupsiyaya qarşı mübarizəyə daha böyük təkan verəcək.

Ötən ildən keçirilməsinə başlanan Vergi Forumunun bu il də davam etdirilməsi çox əhəmiyyətli hadisədir. Burada maraqlı tərəflərin - vergi ödəyicilərinin, vətəndaş cəmiyyətinin, beynəlxalq təşkilatların, dövlət qurumlarının nümayəndələri iştirak edirlər. Bu tədbir vergi orqanının vergi ödəyiciləri, ictimaiyyət qarşısında hesabatlılığıdır».

### «Vergi ödəyiciləri ilə vergi orqanları arasında münasibətlər təqdirəlayiqdir»

***Zaur Qurbanov, «Ernst and Young» şirkətinin vergi və hüquq üzrə baş məsləhətçisi:***



- Bu gün keçirilən tədbir vergi orqanları ilə biznes qurumları, vətəndaş cəmiyyətinin nümayəndələri arasında əməkdaşlıq baxımından böyük töhfə verəcək. Keçən il də forumda iştirak etmişdim. Hər iki forum təşkilatçılıq baxımından çox yüksək səviyyədə təşkil olunmuşdu. Forumda vergi ödəyicilərinin hüquqları ilə bağlı yeniliklər təqdim edildi. Fikrimcə, burada səsləndirilən məlumatların vergi ödəyicilərinin, ictimaiyyətin maarifləndirilməsində böyük rolu olacaq. Onu da deyim ki, vergi sahəsində aparılan islahatlar çox yüksək səviyyədə həyata keçirilib və bu, Vergilər Nazirliyi ilə vergi ödəyiciləri arasında qurulan əlaqələrdə özünü daha açıq göstərir. Bu gün vergi ödəyiciləri onları maraqlandıran hər bir sualın cavabını vaxt itirmədən Vergilər Nazirliyindən əldə edə bilərlər. Vergilər Nazirliyinin vergi ödəyiciləri ilə qurduğu münasibətlər çox təqdirəlayiqdir və hər bir vergi ödəyicisi bu münasibətləri yüksək qiymətləndirir.

**Arzu İBRAHİMOVA, Aytən NƏBİYEVA**

# Kameral vergi yoxlamalarının aparılması işi təkmilləşdirilir

## *Ötən il kameral vergi yoxlaması nəticəsində dövlət büdcəsinə 52 mln. 875,3 min manat vəsaitin ödənilməsi təmin edilmişdir*

*Vergi orqanları vergi ödəyicilərinin büdcə qarşısındakı öhdəliklərini necə yerinə yetirmələrinə, yəni onların öz maliyyə-təsərrüfat fəaliyyətlərinin nəticələrini mühasibat və vergi sənədlərində hansı şəffaflıqla əks etdirmələrinə, vergilərin tam, düzgün yığılmasına kameral və səyyar vergi yoxlamaları vasitəsilə nəzarət edir.*

Vergilər Nazirliyinin rəhbərliyi vergi potensialının yerlərə getmədən müəyyən edilməsini mühüm tələblərdən biri kimi qarşıya qoymuşdur. Bu məqsədlə vergi ödəyiciləri tərəfindən təqdim edilən bəyannamələrin kameral vergi yoxlamaları zamanı keyfiyyət parametrlərinin yüksəldilməsi üçün bir sıra tədbirlər həyata keçirilir. «İqtisadi sahələr üzrə kameral vergi yoxlamaları zamanı əlavə təhlillərin aparılması barədə Metodiki Tövsiyələr»ə əsasən, yeni istiqamətlərdə: məsələn, kommunal xidmətlər üzrə əldə edilən e-VHF-lər, fəaliyyətini dayandırmış və aktiv bank hesabı olan vergi ödəyiciləri barədə banklardan alınmış məlumatlar, gəlir və xərclərin debitor və kreditor borclardan istifadə etməklə yenidən hesablanması və s. mənbəyi bəlli məlumatlar əsasında kameral təhlillərin aparılmasına başlanmışdır.

«Mühasibat uçotu haqqında» Azərbaycan Respublikasının Qanunu və «Maliyyə hesabatlarının təqdimatı üzrə» kommersiya təşkilatları üçün milli mühasibat uçotu standartlarının tətbiqi çərçivəsində bir sıra vergi bəyannamələrinin tərtib edilmə qaydalarına dəyişikliklər olunmuş, nəticədə kameral və səyyar vergi yoxlamaları zamanı əlavə vergi potensialının müəyyən edilməsi üçün imkanlar yaranmışdır.

### Kameral vergi yoxlaması zamanı bəyannamələrdə aşkar edilən əsas səhvlər

Aşkara çıxarılan nöqsanların xarakteri, vergi ödəyicisinin bəyannamə doldurarkən yol verdiyi səhvlər, bu səhvlərin onun vergi öhdəliklərinə hansı formada təsir etməsi maraq doğuran məsələlərdəndir. Ümumiyyətlə, vergi bəyannamələrindəki nöqsanlar müxtəlif xaraterli olur. Bu nöqsanlar mühasibin riyazi hesablamaları zamanı (təsadüfi), yaxud müəssisə rəhbərliyinin məqsədyönlü şəkildə (bilərəkdən) vergiləri azaltmaq nəticəsində ortaya çıxır. Qeyd edək ki, vergi orqanı bəyannamələrdə səhvə yol vermiş vergi ödəyicilərinin vergi öhdəliklərini yenidən hesablamaq və tutmaq hüququna malikdir. Belə ki, kameral yoxlama zamanı bəyannamələrdə vergilərin düzgün hesablanmaması, yəni vergi məbləğinin az və ya artıq göstərilməsi aşkar edildikdə vergi ödəyicisinə 5 gün müddətində vergi orqanı tərəfindən vergilərin hesablanmasına dair qərar göndərilir. Qərarda hesablamanın səbəbləri göstərilir. Ödəyici bu hesablama ilə razılaşmadıqda, məhkəməyə şikayət etmək hüququna malikdir. Vergi bəyannaməsi hər hansı üzrlü səbəb olmadan təqdim edilmədikdə vergilər əlaqəli məlumatlara əsasən hesablanır.

Vergi ödəyicisi səyyar vergi yoxlaması keçirilən zaman vergi orqanının təklifi əsasında həmin yoxlamanın keçirildiyi vaxta qədər yol verdiyi və kameral yoxlama zamanı müəyyən edilə bilən səhvləri 30 gün müddətində düzəltmək hüququna malikdir. Ödəyici həmin müddət bitənədək yol verdiyi vergi qanunvericiliyinin pozulmasına görə (faizlərin ödənilməsi istisna olmaqla) məsuliyyət daşımır. Əgər vergi bəyannaməsində yol verilmiş səhv nəticəsində artıq məbləğdə vergi ödənilərsə, onda ödəyici vergi orqanlarına ərizə ilə müraciət edib öz hüquqlarını tələb edə bilər.

**2012-ci il üzrə real kameraldan ödənişin təsnifatı** *(min manat)*




### Kameral vergi yoxlamalarının nəticəsi rəqəmlərdə...

2012-ci il ərzində 422.650 kameral vergi yoxlaması keçirilmişdir ki, bu da 2011-ci illə müqayisədə 136770 say çox olmuşdur. Yoxlama nəticəsində hesablanmış 235 mln. 825,4 min manatdan 52 mln. 875,3 min manatı dövlət büdcəsinə ödənilmiş, 177 mln. 008,1 min manatı artıq ödəmə hesabına bağlanmış və 5 mln. 942,0 min manatı isə borc olaraq qalmışdır ki, onun da alınması istiqamətində tədbirlər görülür.

2012-ci il ərzində elektron uyğunsuzluqdankənar kameral vergi yoxlamaları nəticəsində 142 mln. 851,8 min manat əlavə vergi məbləği hesablanmışdır: bunun 36 mln. 452,4 min manatı dövlət büdcəsinə ödənilmiş, 106 mln. 399,4 min manatı isə artıq ödəmə hesabına bağlanmışdır.

ƏVİ-lər üzrə kameral vergi yoxlamaları nəticəsində ötən il ərzində 32 mln. 979,7 min manat əlavə vergi məbləği hesablanmışdır: bunun 13 mln. 909,7 min manatının dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir.

**2012-ci il üzrə real kameral vergi yoxlamaları nəticəsində hesablanmış əlavə vergi məbləğlərinin təsnifatı** *(min manat)*




2012-ci il ərzində kameral vergi yoxlamaları ilə əlavə hesablanmış 235 mln. 825,4 min manat məbləğin 153 mln. 969,5 min manatı (65,3%) ƏDV, 34 mln. 681,4 min manatı (14,7%) mənfəət vergisi, 11 mln. 462,1 min manat (4,9%) sadələşdirilmiş vergi, 1 mln. 414,4 min manatı (0,6%) fiziki şəxslərin gəlir vergisi, 21 mln. 288,6 min manatı (9,0%) muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi və 2 mln. 341,4 min manatı (1,0%) ödəmə mənbəyində verginin payına düşür. Ötən il ərzində 1 ay üçün 1 işçiyə düşən kameral hesablamaların sayı 169, məbləği isə 94,5 min manat təşkil etmişdir.

### Kameral vergi yoxlamaları ilə bağlı vətəndaşlardan daxil olan müraciətlər

2012-ci il üzrə kameral vergi yoxlamaları ilə bağlı vətəndaşlardan 10.831 müraciət daxil olmuşdur ki, bu rəqəm il ərzində keçirilmiş 422.650 kameral vergi yoxlamasının 2,5%-ni təşkil edir. Müraciətlərin 147-si (ümumi hesablanmış kameralların sayının 0,03%-i) şikayət xarakterli olmuşdur.

Ötən il ərzində İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin Kameral vergi yoxlamalarına nəzarət şöbəsinin icrasına 633 müraciət daxil olmuş, onlardan 200-ü əsassız hesab olunmuş, 220-si sənədlər və izahatlar üzrə araşdırma aparıldıqdan sonra müsbət həll edilmiş, 124-ü üzrə izahat verilmiş, 68-i qismən həll olunmuş, 21-i üzrə isə icra davam etməkdədir. Vergi ödəyicilərindən daxil olmuş 633 müraciət ümumilikdə kameral qaydada əlavə hesablanmış 4 mln. 706,2 min manat vergi məbləğini əhatə etmişdir və həmin müraciətlərə baxılması nəticəsində qeyd olunan məbləğ 2 mln. 066,2 min manat (43,9%) azaldılmışdır.

**Arzu İBRAHİMOVA**

# İkiqat vergitutmanın aradan qaldırılması haqqında konvensiya layihəsi müzakirə olunur

Yanvarın 28-dən 31-dək Bakı şəhərində Vergilər və Maliyyə nazirliklərinin mütəxəssislərindən ibarət nümayəndə heyəti ilə İsrail Dövlətinin Maliyyə Nazirliyi və Vergi Administrasiyasının mütəxəssislərindən ibarət nümayəndə heyəti arasında «Azərbaycan Respublikası Hökuməti və İsrail Dövləti Hökuməti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya» layihəsi üzrə danışıqların ilk mərhələsi keçirilmişdir. Danışıqlar nəticəsində Konvensiya layihəsinin əksər müddəaları üzrə razılıq əldə edilmiş, əlavə müzakirələr tələb edən müddəaların razılaşdırılması üzrə işlərin davam etdirilməsi qərara alınmışdır. Tədbirdə qeyd olunmuşdur ki, ikiqat vergitutmanın aradan qaldırılması ilə bağlı razılığın əldə olunması Azərbaycan və İsrail arasında iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsində mühüm rol oynayacaqdır.

İndiyədək Azərbaycan ikiqat vergitutmanın aradan qaldırılması sahəsində 43 ölkə ilə saziş imzalayıb, bir neçə ölkə ilə sazişlərin imzalanması razılaşdırılıb, bəzi ölkələrlə isə müzakirələr davam etdirilir. Sazişlərin hazırlanması və imzalanması prosesində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Gəlir və Əmlak üzrə Model Vergi Konvensiyası və Birləşmiş Millətlər Təşkilatının (BMT) inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlər arasında ikiqat vergitutmanın aradan qaldırılması haqqında Model Konvensiyası əsas baza sənədləri hesab olunur.

# Virtual aləmdə vergi administrasiyaları üçün yeni çağırışlar

Yanvarın 29-dan fevralın 1-dək İsveçin Hotenburq şəhərində Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA) «Virtual aləmdə vergi administrasiyaları üçün yeni çağırışlar» mövzusunda seminar təşkil etmişdir. Tədbirdə Azərbaycan, Albaniya, Avstriya, Bolqarıstan, Böyük Britaniya, Çex Respublikası, Danimarka, Estoniya, Finlandiya, Fransa, Gürcüstan, Macarıstan, Latviya, Litva, Norveç, İspaniya, İsveç, İsveçrə, Polşa, Portuqaliya, Serbiya, Slovakiya nümayəndələri iştirak etmişlər.

Intra-European Organisation of Tax Administrations

Müzakirə olunan məsələlərdən biri hazırda internetin əsas ticarət məkanına çevrilməsi olmuşdur: bu, vergi administrasiyaları qarşısında yeni vəzifələr qoyur. Vergi orqanlarında qeydiyyata alınmadan internetdə elan yerləşdirərək ticarətlə məşğul olan fiziki və hüquqi şəxslərin müəyyən edilməsi və bu cür fəaliyyət üzrə vergidən yayınmaya qarşı tədbirlər görmək gerçəkliyi yaranır.

Seminarda ölkəmizi Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Vergi siyasəti idarəsinin Qanunvericiliyin monitorinqi və təkmilləşdirilməsi şöbəsinin əməkdaşı Xamis Seyranov təmsil etmişdir.




**Yuxarıdan aşağı:** 1.Qırğızıstanın paytaxtı; 2.Azərbaycanda informasiya agentliyi; 3.İflas; 4.İsveçrədə şəhər; 5.Kəlbəcər rayonunda kənd; 6.Ayaqqabı təmizləmək üçün Fransada ixtira edilmiş maz; 7.Ordubad rayonunda kənd; 11.Daşınmaz əmlak növü; 13.Ali və ya orta təhsilli kənd təsərrüfatı mütəxəssisi; 15.Baltik dənizində yerləşən, İsveçə məxsus ada; 16.«Dərviş Parisi partladır» filmində Müsyö Jordan obrazını canlandırmış aktyorun soyadı; 17.Ağır atletikada istifadə olunan idman aləti; 18.Subsidiya növü; 20.Əsas küçədən ayrılan, çıxışı olmayan dar yol; 22.Dünyada ən məşhur kompüter markalarından biri.

**Soldan sağa:** 1.Şahbuz rayonu ərazisində dəniz səviyyəsindən 2500 metr yüksəklikdə yerləşən göl; 5.Başqırdıstanda çay; 8.Bavariyada şəhər; 9.Hər hansı bir fəaliyyət növünə yenilik, proqressiv ideyalar gətirən şəxsə deyilir; 10.Məşhur heykəltəraş, Azərbaycan Respublikasının xalq rəssamı; 12.Avtomobil markası; 14.İslam dininə görə kişi ilə qadın arasında başlanmış nikaha sonvermə; 16.Ənənəvi Asiya sisteminə əsaslanan silsilə fiziki məşqlər. Sanskrit dilində «yuj» sözündən götürülüb, mənası «birləşmə», «qovuşma» deməkdir. 19.Zəhərlənmənin qarşısını almaq üçün istifadə olunan dərman vasitələrinin ümumi adı; 21.Çinin şimal-şərqində çay; 23. «Azərbaycanın vergi xəbərləri» jurnalının sabiq baş redaktorunun adı. «Spektr», «Döngə», «Burulğan», «Səni axtarıram», «Bağışla» və s. telepyesləri; «Vergi mədəniyyəti» (A.F.Musayevlə birlikdə) kitabının, şagirdlər üçün «Vergilərin əhəmiyyəti və ya yeddi nağıl axşamı» (A.F.Musayevlə birlikdə) adlı dərs vəsaitinin, eləcə də bir neçə povest və hekayənin müəllifi; 24.Xocavənd rayonu yaxınlığında vertolyotun ermənilər tərəfindən vurulması nəticəsində şəhid olmuş Azərbaycan Respublikasının ilk Baş prokurorunun adı; 25.«Pop Kraliça» ləqəbli Amerika müğənnisi.

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:**
1.Dollar; 2.Bonus; 3.Tangens; 4.Rük; 5.Soros *(Corc)*; 6.İnsbruk; 7.Tinamu; 11.Qəlib; 13.Smokinq; 15.Matador; 16.Məhfuz *(Nəcib)*; 17.Xaqani *(Şirvani)*; 18.Fürer; 20.Sovla; 22.Xaş.

**Soldan sağa:**
1.Debitor; 5.Spirt; 8.Lanin; 9.Karlson *(Çester)*; 10.Aysberq; 12.Fuqu; 14.Səlim; 16.«Mumu»; 19.Batista; 21.Fridrix *(Engels)*; 23.Dovğa; 24.Zoqar; 25.Şirvani *(Seyid Əzim)*.

**ELANLAR**

«Qələbə» MMC (VÖEN: 1700107601) ləğv olunduğunu elan edir. Kreditorlar iki ay ərzində tələblərini Bakı şəhəri, Zərifə Əliyeva küçəsi 55 ünvanına bildirə bilərlər.

«ASTRA LTD» firması (VÖEN: 1400116311) ləğv olunduğunu elan edir. Kreditorlar iki ay ərzində tələblərini Bakı şəhəri, Zərifə Əliyeva küçəsi 55 ünvanına bildirə bilərlər.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi
Baş redaktor: Anar Əliyev
anar.eliyev@taxes.gov.az
Baş redaktor müavini: Məti Osmanoğlu
Qeydiyyat şəhadətnaməsi №R148.
VÖEN: 1300327481.
H/h AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581.
VÖEN: 9900006651.
M/h: 0137010032944
SWIFT BIK ATAZAZ-22.
Ünvan: AZ 1141, Bakı ş., Hüseyn Cavid pr., 81
Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)
«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
Tiraj: 15000

idman

# Gənc taekvondoçularımız yüksək nəticə göstəriblər

***Gənclərdən ibarət Azərbaycan seçmə komandası İsveçdə keçirilən ənənəvi «Trelleborq Open» turnirində yarışları uğurla başa vurmuşdur***

Azərbaycan Taekvondo Federasiyasından bildirmişlər ki, Avropa Taekvondo Birliyinin (ETU) A dərəcəli turnirinin ilk günündə idmançılarımız 3 medal qazanmışlar. Dörddəbir final mərhələsində Finlandiyadan olan idmançı Linna Lottaya 9:5 hesabı ilə qalib gələn Azərbaycan taekvondoçusu Nərminə Məmmədova (44 kq) ikidəbir final mərhələsində isveçli Patrisiya Striner üzərində də 4:1 hesablı qələbə qazanaraq finala yüksəlmişdir. Finalda Kiprdən olan idmançı Koutoki Kiriyakini 1:0 hesabı ilə məğlub edən Nərminə Məmmədova fəxri kürsünün ən yüksək pilləsinə yüksələrək qızıl medala sahib olmuşdur. Daha iki idmançımız - Tağı Tağızadə (45 kq) və Məhəmməd Məmmədov (55 kq) bu yarışda bürünc medala sahib olmuşlar. Taekvondoçularımızdan Zümrüd Məlikova (49 kq), Samir Novruzov (51 kq), Yusif Hüseynli (9 kq), Mirxanım Ağayeva (44 kq) və Təranə Məmmədova (46 kq) mübarizəni dörddəbir finalda, Aynur Məmmədova (49 kq), Babək Əjdərli (48 kq), Əli Axundov (59 kq) və Məmmədnəbi Alqayev (55 kq) isə çıxışlarını təsnifat mərhələsində başa vurmuşlar.

Yarışda iştirak edən daha 6 idmançımız fevralın 10-da mübarizəyə qoşulmuşdur. Həmin gün taekvondoçularımız daha iki medal qazanmışlar. Ayxan Tağızadə (63 kq) və Səid Quliyev (73 kq) bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxmışlar.

Milli komandamız turnirdə, ümumilikdə, 5 medal qazanmışdır. Beləliklə, ənənəvi «Trelleborq Open» turnirinin favoritlərindən sayılan Azərbaycan taekvondoçuları bu dəfə 3 qızıl və 2 bürünc medal qazanmaqla yarışı yüksək pillələrdə başa vurmuşlar.



# Azərbaycan güləşçiləri Türkiyədən beş medalla qayıtdılar

***Türkiyənin paytaxtı Ankara şəhərində Yaşar Doğunun xatirəsinə həsr olunmuş sərbəst güləş üzrə 41-ci beynəlxalq turnir başa çatmışdır.***

Azərbaycan Güləş Federasiyasından verilən xəbərə görə, baş məşqçi Saypulla Absaidov və məşqçi Elman Əsgərovun rəhbərliyi altında turnirdə iştirak edən yığma komandamız 1 qızıl, 1 gümüş və 3 bürünc medala sahib olmuşdur.

Turnirdə bütün rəqiblərinə qalib gələn Aleksandr Qostiyev (74 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdır. Xetaq Qazyumov (96 kq) gümüş, Yaşar Əliyev (55 kq), Hacı Əliyev (60 kq) və Cəmaləddin Məhəmmədov (120 kq) bürünc medal qazanmışlar.

# Birinci Avropa Oyunlarının proqramına yeni idman növü salınıb

***2015-ci ildə Bakıda keçiriləcək birinci Avropa Oyunlarının proqramına yeni idman növü salınmışdır. İtaliya mətbuatının verdiyi məlumata görə, bu, çimərlik həndboludur. Həmin növ üzrə yarışa kişi və qadınlardan ibarət komandalar qatıla biləcəklər. Lisenziyalar isə iyulun 9-14-də Danimarkanın Randers şəhərində keçiriləcək Avropa çempionatında qazanılacaqdır.***

Qeyd edək ki, çimərlik həndbolu qumlu çimərliklərdə keçirilən idman növüdür və 1990-cı illərin əvvəllərində İtaliyada yaradılmışdır. Hazırda bu növ 40-dan çox ölkədə inkişaf etdirilir. Çimərlik həndbolu eni 12 metr, uzunluğu 27 metr olan sahədə keçirilir. Komandalar hərəyə 8 oyunçu ilə meydana çıxırlar. Onlar hər biri 10 dəqiqədən ibarət 2 hissəlik mübarizəyə qatılırlar.

# «Baku Fires» yüz faizlik göstərici ilə liderdir

***«Sərhədçi» İdman Olimpiya Mərkəzində Dünya Boks Seriyası (WSB) Liqasının 8-ci turu çərçivəsində Azərbaycanın «Baku Fires» və «Rusiya» komandaları qarşılaşmışlar.***

Azərbaycan Boks Federasiyasından bildirmişlər ki, komandamız bu dəfə də 4:1 hesabı ilə qalib gələrək 100 faizlik nəticə ilə turnir cədvəlində liderliyini davam etdirir. Görüşdə Elvin Məmişzadə (54 kq, «Baku Fires») Vyaçeslav Taşkarakova, Mixail Veselev (73 kq) Sergey Sitinikova, İaqo Kiziriya (85 kq) Dmitri Bivola, Hacı Murtuzəliyev (91 kq-dan yuxarı) Sergey Kalçuqinə qalib gəlmişdir. Məhəmmədəli Ukayev (61 kq, «Baku Fires») isə Eduard Xusainova məğlub olmuşdur.

mozaika

texnologiya

# Azərbaycanın ilk telekommunikasiya peyki orbitə buraxıldı

Cənubi Amerikada yerləşən Fransanın Qviana Kosmik Mərkəzinin Kuru kosmodromundan Azərbaycanın ilk milli süni telekommunikasiya peyki - «Azerspace-1» geostasionar orbitə çıxarılıb. ABŞ-ın «Orbital Sciences» şirkəti tərəfindən istehsal olunan «Azerspace-1» peyki «Ariane-5» kosmik daşıyıcısı ilə orbitə çıxarılıb. Peykin ümumi çəkisi 3250 kq təşkil edir və onun istifadə müddəti 15 ildir. Peyk 36 aktiv C və Ku siqnal transponderlərə malikdir və Azərbaycan, Mərkəzi Asiya, Avropa və Afrika ölkələri üçün xidmət göstərəcək. Peykin orbitdəki yeri isə Şərq istiqamətində 46 dərəcədir. Peykin imkanlarının 20%-i Azərbaycanın tələbatını ödəmək üçün, qalan 80 faizi isə kommersiya məqsədilə istifadə ediləcək. Artıq peykin resurslarının 40%-nin istifadəsi üçün şərti müqavilələr imzalanıb.

Xatırladaq ki, Prezident İlham Əliyevin «Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında» sərəncamı, həmçinin «Kosmik sənayenin yaradılması və inkişafı üzrə» Dövlət Proqramının təsdiq edilməsi ölkədə kosmik sahənin inkişafına xüsusi zəmin yaradıb. Azərbaycanda kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin, o cümlədən digər çoxməqsədli peyklərin orbitə çıxarılması ilk növbədə informasiya mübadiləsinin xarici ölkələrdən asılılığının aradan qaldırılması və informasiya təhlükəsizliyinin təmin edilməsi, eyni zamanda ölkədə yeni iqtisadi sahələr üzrə mövcud insan ehtiyatları və intellektual potensialın inkişaf etdirilməsi, elmtutumlu yeni layihələrin həyata keçirilməsi və nəticə etibarilə innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması istiqamətində aparılan işlər arasında xüsusi və strateji əhəmiyyəti ilə seçilir.



# Tibdə yeni kəşf

Bəşəriyyət uzun müddətdir ki, özünün yaratdığı ciddi bəlaların birindən - siqaret asılılığından qurtarmaq üçün yollar arayır, bu sahədə kampaniyalar keçirilir, tədqiqatlar aparılır. Yapon və Kanada alimləri bu yaxınlarda beyində nikotin asılılığını tezləşdirən nöqtəni kəşf etdiklərini bildirmişlər. Amerikanın «PNAS» jurnalında dərc olunan araşdırmanın siqaret asılılığına böyük zərbə vuracağı gözlənilir. Mütəxəssislər bu nöqtəyə ediləcək müdaxilələrlə siqaret asılılığının qarşısını ala biləcəkləri qənaətindədirlər. Yaponiyalı alim Takuya Hayaşi vurğulamışdır ki, pilotlar təyyarənin enişə keçdiyi anlarda siqaret çəkmək istəklərinin daha da artdığını söyləyirlər. Bu vəziyyət siqaret çəkmə istəyinin yalnız nikotin tələbatı ilə əlaqəli olmadığını göstərir. Bunun həm də nevroloji tərəfi olduğu müəyyən edilmişdir.

özümüzü tanıyaq

# Türkmənçay müqaviləsi

**Hörmətli oxucular!**

***Qəzetimizin bu buraxılışında rubrikamızın xronoloji ardıcıllığını pozub, nisbətən yaxın tariximizi önə gətirməyimiz səbəbsiz olmadı - Azərbaycan tarixində dərin iz açmış Türkmənçay müqaviləsinin imzalanmasından artıq 185 il keçir.***



*10 fevral 1828. Türkmənçay müqaviləsinin imzalanma mərasimi*

1828-ci il fevralın 10-da Təbriz-Tehran yolunun üstündə yerləşən Türkmənçay kəndində - azərbaycanlıların qədim yurdunda bağlanan müqavilə ilə ikinci Rusiya-İran müharibəsinə (1826-1828) son qoyuldu. 16 maddədən ibarət olan Türkmənçay müqaviləsinə görə, çar Rusiyası qoşunlarını Cənubi Azərbaycandan çıxarırdı. İran hökuməti isə bu anlaşma ilə Azərbaycanın şimal xanlıqlarının Rusiyanın tərkibinə qatılmasını rəsmən təsdiq edirdi. Müharibədə məğlub olan İran Rusiyaya 20 mln. rubl təzminat verməli idi (XIX əsrin sonlarına qədər Rusiyada dövlətdən məvacib alanların orta əməkhaqqının 20 rubldan az olduğunu nəzərə alsaq, təzminatın məbləği çox böyük idi). İran hökuməti bu məbləği ödəyib qurtarana qədər zəbt edilən Cənubi Azərbaycan vilayətləri Rusiyanın himayəsində qalırdı.

Bu müqavilənin imzalanması ilə Rusiya imperiyası dərhal Azərbaycan xalqına, xüsusi olaraq türk toplumuna qarşı məkrli bir siyasətini də ortaya qoydu: Qafqazın azərbaycanlılar yaşayan ərazilərinə İrandan və Osmanlıdan ermənilərin köçürülməsi, eləcə də ermənilər üçün xüsusi siyasi imtiyazlar müəyyənləşdirilməsi millətimiz üçün əsrdən-əsrə, nəsildən-nəslə keçən dərin bir uçurum yaratdı...

Rusiya çarı I Nikolay Türkmənçay müqaviləsini martın 20-də təsdiq etmiş, martın 21-də isə «Erməni vilayəti» yaradılması haqqında fərman verməişdi. Fərmanda deyilirdi: «İranla bağlanmış müqaviləyə əsasən, İranın tabeliyindən Rusiyaya birləşdirilən İrəvan və Naxçıvan xanlıqlarını bundan sonra «Erməni vilayəti» adlandırmağı hökm edir və öz titulumuza daxil edirik».

«Erməni vilayəti» İrəvan, Naxçıvan əyalətlərindən və Ordubad dairəsindən ibarət idi. İrəvan əyalətinə 15 mahal, Naxçıvan əyalətinə 5 mahal, Ordubad dairəsinə 5 mahal daxil idi.

1829-cu ilin əvvəlində Qafqaz canişini qraf Paskeviçin tapşırığı ilə kollej assesoru İ.Şopen «Erməni vilayəti» adlandırılmış ərazidə kameral siyahıyaalma keçirdi. Əlyazması 20 cilddən ibarət olan bu siyahıyaalmaya görə, «Erməni vilayəti»ndə 752 kənd var idi: 521-i İrəvan əyalətində, 179-u Naxçıvan əyalətində, 52-si Ordubad dairəsində. Müharibə nəticəsində vilayətin ərazisində 359 kənd, o cümlədən 310 kənd İrəvan əyalətində, 42 kənd Naxçıvan əyalətində, 6 kənd Ordubad dairəsində xaraba qalmış, əhalisi didərgin düşmüşdü. İ.Şopenin hesablamasına görə, xanlıqların işğal edilməsinədək «Erməni vilayəti»nin ərazisində təxminən 23.730 ailə (İrəvan əyalətində 17.000, Naxçıvan əyalətində 4.600, Ordubad dairəsində 2.130) yaşamışdı.

Siyahıyaalmanın nəticələrinə əsasən, vilayətdə 81.749 müsəlman (bu söz «türk» oxunmalıdır - çar imperiyası varlığının sonuna qədər bizim millətimizi öz adı ilə çağırmaqdan ehtiyatlandığı üçün ya «müsəlman», ya da «Qafqaz tatarı» adlandırırdı) və 25.131 yerli erməni qeydə alınmışdı. Başqa sözlə, çar hökumətinin «Erməni vilayəti» kimi görmək və qurmaq istədiyi ərazidəki ermənilərin sayı türklərin sayından təxminən 3,5 dəfə az idi. Bu siyahıyaalınmanın daha bir incə məqamı isə ondadır ki, orada ayrı-ayrı yaşayış məntəqələri üzrə İrandan və Osmanlıdan köçürülən erməni ailələrinin sayı və onların hansı yaşayış məntəqəsində məskunlaşdırıldıqları da göstərilmişdi. «Erməni vilayəti» 1840-cı ildə buraxıldı, 1849-cu ildə isə İrəvan, Aleksandropol, Naxçıvan, Ordubad və Yeni Bəyazid qəzalarından ibarət İrəvan quberniyası yaradıldı. Rusiya imperiyası süqut edənə qədər bu inzibati struktur saxlanıldı. Ancaq onun Azərbaycan tarixində açdığı yara bu gün də qan verməkdədir...

**Müdriklər deyib ki...**



***«İnsanın ən ülvi təyinatı öz vətənini qorumaqdır».***

*Qavriil Derjavin (1743-1816)*